## Dövrün əsas qlobal problemləri NƏLƏRDİR?


10


3

**Byorn Berge:** "Azərbaycan müxtəlif mədəniyyət və din nümayəndələrinin görüş məkanına çevrilib"



# SƏS


№ 078 (6519) 6 may 2022-ci il. Qiymәti 60 qəpik




# Hərbi qələbədən diplomatiya zəfərinə

2

# Birinci və İkinci Qarabağ müharibələri: itirdiklərimiz, qazandıqlarımız


8


4

## "E-KÖŞK" layihəsi təqdim olunub

5 may tarixində Medianın İnkişafı Agentliyində "E-KÖŞK" qəzet və jurnalların elektron yayım platformasının...

## Sürücülər pərdə və plyonkadan istifadədə niyə maraqlıdırlar?


6

## Dollar möhkəmlənir: Manata təzyiq yarana bilərmi?



## Hansı idman sayəsində neçə kalori itiririk?

16



## Azərbaycanın növbəti zəfəri - GÖRÜNMƏZ DÜŞMƏN ÜZƏRİNDƏ QƏLƏBƏ



11



# Hərbi qələbədən diplomatiya zəfərinə

## Prezident: "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir"

**23 il öncə, 1999-cu ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Ordusunun ən çevik və yüksək döyüş qabiliyyətinə malik bölmələrindən olan Xüsusi Təyinatlı Qüvvələri yaradılıb. Ümummilli lider Heydər Əliyev tərəfindən vahid komandanlıq altında birləşdirilən Azərbaycan Ordusunun bu bölmələri Türkiyə Silahlı Qüvvələri və onun Xüsusi Təyinatlı Qüvvələri ilə sıx əməkdaşlıqla formalaşdırılıb. Artıq son 19 ildə Ali Baş Komandan İlham Əliyev xüsusi təyinatlı qüvvələrə yüksək diqqət yetirir, onların fəaliyyəti, təchizatı, gündəlik məşqləri mütəmadi nəzarətdədir. Qeyd edək ki, heç də hər hərbçi Xüsusi Təyinatlı Qüvvələrin üzvü seçilmək hüququ qazanmır. Bunun üçün ağır təlimlər, hərbi imtahanlar, iradə nümayişi vacib şərtlərdən olmaqla, burada əlbəyaxa döyüş, dərin kəşfiyyat, düşmən arxasına keçmə, həyatda qalma, mühəndis, atəş, psixoloji, desant, dalğıc, tibbi, asimmetrik döyüş və sair kimi hazırlıqlar üzrə təlimlər keçirilir.**

Mübaliğəsiz demək olar ki, Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti 2016-cı ilin Aprel döyüşlərində, eləcə də 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də böyük şücaət göstəriblər. Torpaqlarımızın düşmən tapdağından azad edilməsində XTQ-nin misilsiz xidmətləri olub. Onların qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinə düşdü. Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə aprelin 30-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində olub və heyət qarşısında çıxış edib. 44 günlük Vətən müharibəsi ilə Ermənistanın 30 illik işğalına son qoyan və Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ölkəmizə qələbələr qazandırmada davam edir. Dövlət başçısının qətiyyətli siyasəti nəticəsində Azərbaycan hərbi zəfərini diplomatiya meydanında təkrarlayır. Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində şəxsi heyət qarşısında çıxışı zamanı deyib ki, Xüsusi təyinatlıların gələcək fəaliyyəti ilə bağlı bütün göstərişlər verilib: "Bu gün bölgəmizdə vəziyyət tam fərqlidir. Biz qalib xalq kimi, müzəffər ölkə kimi öz gücümüzü artırırıq. Xüsusi təyinatlıların gələcək fəaliyyəti ilə bağlı bütün göstərişlər verilib". Bu hərbi hissədə müharibədən bir il əvvəl olduğunu, xüsusi təyinatlılarla görüşdüyünü xatırladan dövlətimizin başçısı deyib: "Bu gün də, bu bayram günündə sizinlə birlikdə olmaq mənim üçün böyük şərəfdir. Mən sizinlə fəxr edirəm. Bütün Azərbaycan xalqı sizinlə fəxr edir. Ermənistan, Ermənistan silahlı qüvvələri Azərbaycan xüsusi təyinatlılarının adı gələndə titrəməyə başlayırlar. Onların canlarında olan bu xof bu günə qədər çıxmayıb və çıxmayacaq".

### "BU GÜN İSƏ BÖLGƏMİZDƏ VƏZİYYƏT TAM FƏRQLİDİR"

Azərbaycan Prezidenti qeyd edib ki, biz tarixi ədaləti bərpa etdik, xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında öz vətəndaşlıq borcumuzu şərəflə yerinə yetirdik: "Biz müharibə istəmirik. Biz istədiyimizə nail olduq. Tarixi ədaləti bərpa etdik. Xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında öz vətəndaşlıq borcumuzu şərəflə yerinə yetirdik",-deyən dövlət başçısı söyləyib ki, hər zaman ayıq olmalıyıq: "Çünki Ermənistanda bu gün də revanşist qüvvələr baş qaldırır. Ermənistanda bu gün də Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edənlər var. Biz bunu daim diqqət mərkəzində saxlamalıyıq, buna laqeyd olmamalıyıq. Məhz buna görə İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğuna əlavə vəsait ayrıldı və necə ki, 2004-cü ildən bu günə qədər bu il və gələn il hərbi xərclər bir nömrəli xərclər olacaq, o cümlədən, xüsusi təyinatlıların sayının artırılması artıq reallıqdır. İndi sayla bağlı mən bir şey demək istəmirəm. Ancaq onu deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Xüsusi Təyinatlı Qüvvələrin sayı 2 dəfə artırıldı, indi seçim daha sərtdir və maraq daha böyükdür, müraciətlər kifayət qədər çoxdur. Mənəvi-psixoloji keyfiyyətlər, fiziki hazırlıq, peşəkarlıq və ən önəmlisi Vətən sevgisi bu seçimin əsas şərtləridir".

### "BİZİ İRƏLİYƏ VƏTƏN SEVGİSİ APARIRDI, XÜSUSİ TƏYİNATLILAR BU AMALLA SİNƏSİNİ QABAĞA VERİRDİ"

Ordumuzu qələbəyə aparan amillərdən danışan dövlətimizin başçısı deyib ki, biz cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi düşmənin əlindən aldıq, döyüş meydanında bu Zəfəri qazandıq, danışıqlar yolu ilə yox, kiminsə güzəşti ilə yox, qan tökərək, şəhidlər verərək: "Bizi irəliyə nə aparırdı? Vətən sevgisi, Vətənə sevgi, düşmənə nifrət! Bax, biz gənc nəsli bu əhval-ruhiyyədə yetişdirmişik, bu əhval-ruhiyyədə bizim ordumuz yetişib və ordumuzun ən döyüşkən birləşməsi olan xüsusi təyinatlılar bu amalla, bu ideya ilə irəliyə gedirdi, öz sinəsini qabağa verirdi".

### "DÜNYA ETİRAF EDİR Kİ, AZƏRBAYCANLILAR KİŞİ KİMİ VURUŞDULAR, DÜŞMƏNİ DİZ ÇÖKDÜRDÜLƏR"

"Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən o sıldırım qayaları görəndə hər dəfə mənim gözlərimin önünə siz gəlirsiniz. Bu alınmaz qala necə alındı - yüngül silahlarla, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə. Qarşıda, yuxarıda, dağın başında təpədən dırnağa qədər silahla, topla, tankla silahlanmış ermənilər sizin qarşınızda aciz idilər",- deyən Silahlı Qüvvələrin Ali Baş Komandanı deyib ki, həm gücünüz, həm iradəniz, peşəkarlığınız və Vətən sevgisi. Siz öz Vətəniniz uğrunda doğma torpaqda vuruşurdunuz: "İşğalçı düşmən isə Azərbaycan torpağında sizin qarşınızda duruş gətirə bilməzdi. Şuşanın azad olunması müharibənin ən parlaq səhifəsidir. Bu gün dünyanın aparıcı hərbi məktəblərində Şuşa əməliyyatı, Hadrut əməliyyatı, digər əməliyyatlar öyrənilir. İkinci Qarabağ müharibəsindən ilyarım keçib. Hərbi ekspertlər, bu məsələ ilə, münaqişələrlə məşğul olan insanlar bu günə qədər Azərbaycan Zəfəri haqqında danışırlar və mənə bu məsələ ilə bağlı, müharibə ilə, Zəfərimizlə bağlı çoxsaylı suallar verilir. Nə, hansı amillər bu Qələbəni şərtləndirdi? Onların arasında birinci Vətən sevgisidir. Yəni, sizi ölümə aparan, "öldü var, döndü yoxdur" deməyə vadar edən Vətən sevgisi idi və biz bunu nümayiş etdirdik. Bütün dünyaya nümayiş etdirdik ki, biz böyük xalqıq və müharibəni biz ləyaqətlə aparmışıq. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bizim şəhər və kəndlərimizi namərd atəşə tutmuşdur. Yüzdən çox dinc insan, onların arasında uşaqlar, qadınlar bu namərd atəş altında öz həyatlarını itirdilər. Biz isə ləyaqətlə müharibəni apardıq və müharibə zamanı mən deyirdim ki, biz qisasımızı döyüş meydanında alacağıq. Biz mülki vətəndaşlarla heç vaxt vuruşmamışıq və vuruşmayacağıq. Azərbaycan xalqının ülvi keyfiyyətləri bizə imkan verməz və belə də oldu. Bütün dünya bunu etiraf edir ki, azərbaycanlılar ləyaqətlə vuruşdular, kişi kimi vuruşdular, düşməni qovdular, diz çökdürdülər və öz sözlərinə əməl etdilər".

### "ERMƏNİSTANIN KAPİTULYASİYA AKTINA İMZA ATMAQ MƏNİM HƏYATIMDA ƏN QÜRURLU HADİSƏDİR"

"Azərbaycan Silahlı Qüvvələrinin tarixi Zəfəri bizim tariximizdə əbədi qalacaq. Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq",-deyən Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev qeyd edib ki, bu sevinci bizə bəxş edən bizim övladlarımız, əsgər və zabitlərimiz olub. Bütün Silahlı Qüvvələr bu Qələbənin əldə olunmasında öz dəyərli töhfəsini verdi və cəmi 44 gün ərzində tarixi Zəfər əldə olundu, düşmən bizim qabağımızda diz çökdü və məcbur oldu öz əli ilə kapitulyasiya aktına imza atdı: "Bu, tariximizin və mənim həyatımda bəlkə də ən yaddaqalan, ən sevincli, ən qürurlu anlardan biridir, bəlkə də birincisidir. Ermənistanın kapitulyasiya aktına imza atmaq mənim həyatımda ən qürurlu hadisədir".

Ardı Səh. 3

Əvvəli Səh. 2

# Hərbi qələbədən diplomatiya zəfərinə

## Prezident: "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir

### "QARABAĞ ERMƏNİSTANDIR VƏ NÖQTƏ" DEYƏN DÜŞMƏN BU GÜN "QARABAĞ AZƏRBAYCANDIR!" DEYİR"

"Ulu öndərin ordu quruculuğu sahəsində gördüyü işlərin nəticəsində Azərbaycan Ordusu demək olar ki, sıfırdan yaranmağa başlamışdır və illər keçdikcə ordumuz öz gücünü artırmışdır". Bunu Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində şəxsi heyət qarşısında çıxışı zamanı deyib. "Bunu biz işğal dövründə müxtəlif zamanlarda görmüşük, o cümlədən Aprel döyüşlərində. Aprel döyüşləri işğalçılar üçün bir mesaj, bir siqnal idi ki, işğala son qoyun, torpaqlarımızdan çıxın, rədd olun. Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər. Bizi yeni müharibə ilə hədələyən düşmən İkinci Qarabağ müharibəsində öz dərsini aldı. "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir".

### "MƏN PREZİDENT KİMİ ÖZ SƏLAHİYYƏTLƏRİMİ İCRA ETMƏYƏ BAŞLAYAN ZAMAN DEMİŞDİM Kİ, MƏNİM ÜÇÜN PREZİDENT VƏ ALİ BAŞ KOMANDAN KİMİ BİRİNCİ VƏZİFƏ ORDU QURUCULUĞUDUR"

Dövlət başçısı vurğulayıb ki, bütün bu qələbələri, məhz ordumuzun gücü ilə əldə etdik: "Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq",-deyən dövlət başçısı söyləyib ki, Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayandan birinci vəzifə ordu quruculuğunu gücləndirmək olub: "Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur. Çünki torpaqlarımız işğal altındadır, danışıqlara ümidlərimiz tükənib və güc yolu ilə biz bu məsələni həll etməliyik. Bunu illər boyu bəyan edirdim, çalışırdım Ermənistan rəhbərliyi, nəhayət anlasın ki, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi, Azərbaycan Ordusu bu işğalla heç vaxt barışmayacaq. Bunu rəsmən bəyan edirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı düşmənin əlindən alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Belə də oldu".

### "BİR YUMRUQ KİMİ BİRLƏŞDİK VƏ DÜŞMƏNƏ ELƏ SARSIDICI ZƏRBƏLƏR ENDİRDİK Kİ, BU GÜNƏ QƏDƏR DƏ ÖZÜNƏ GƏLƏ BİLMİR"

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsinin şəxsi heyəti qarşısında çıxışı zamanı söyləyib ki, Vətən müharibəsi bizim şanlı tariximizdir: "Vətən müharibəsi bizim şanlı tariximizdir. Azərbaycan xalqı öz ordusuna dayaq və arxa oldu, bütün Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları birləşdi. Bir yumruq kimi birləşdik və düşmənə elə sarsıdıcı zərbələr endirdik ki, bu günə qədər də özünə gələ bilmir".

### "ERMƏNİSTAN ORDUSUNUN QALIQLARI BU GÜN BAKININ MƏRKƏZİNDƏ, HƏRBİ QƏNİMƏTLƏR PARKINDA NÜMAYİŞ ETDİRİLİR"

Dövlət başçısı bildirib ki, olmayan ordudan danışan Ermənistana 44 günlük müharibədə xalqımız bir yumruq kimi birləşərək onları diz çökdürdük və onların qalıqları artıq Bakının küçələrində - Hərbi Qənimətlər Parkındadır: "Ermənistan ordusu 44 gün ərzində tamamilə məhv edilmişdir. Ermənistan ordusunun qalıqları bu gün Bakının mərkəzində, Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Vaxtilə Ermənistan rəhbərliyi bizi yeni müharibə ilə hədələyirdi. Deyirdilər ki, əgər Azərbaycan hərbi yolla bu məsələni həll etmək istəsə, erməni tankları Bakının küçələrində olacaq. Bəli, erməni tankları Bakının küçələrində oldu, biz onları məhv edilmiş vəziyyətdə gətirdik. İndi o tanklar, digər toplar və texnika Hərbi Qənimətlər Parkında nümayiş etdirilir".

### "BİZ GÜCLÜ ORDU YARATMIŞIQ, BUNDAN SONRA DA BU İSTİQAMƏTDƏ İŞLƏR APARILACAQ"

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev çıxışında bildirib ki, ulu öndərin ordu quruculuğu sahəsində gördüyü işlərin nəticəsində Azərbaycan Ordusu demək olar ki, sıfırdan yaranmağa başladı və illər keçdikcə ordumuz öz gücünü artırdı: "Bunu biz işğal dövründə müxtəlif zamanlarda, o cümlədən Aprel döyüşlərində görmüşük".Aprel döyüşlərinin işğalçılar üçün bir mesaj, bir siqnal olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər. Bizi yeni müharibə ilə hədələyən düşmən İkinci Qarabağ müharibəsində öz dərsini aldı. "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir. Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq".

### "XÜSUSİ TƏYİNATLILAR VƏTƏN MÜHARİBƏSİNDƏ TARİXİ ZƏFƏRİMİZİN ƏLDƏ OLUNMASINDA XÜSUSİ ROL OYNAYIBLAR"

Dövlət başçısı onu da vurğulayıb ki, 23 il əvvəl ulu öndər Heydər Əliyev növbəti dəfə uzaqgörənlik göstərərək imzaladığı Fərmanı ilə yaradılan Azərbaycanda Xüsusi Təyinatlı Qüvvələr yaradıldı və bu qüvvələrin yaradılması İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdə də özünü sübut etdi. 1999-cu ildə vəziyyətin fərqli olduğunu, münaqişənin sülh yolu ilə həll olunması üçün ümidlərin tükənmədiyini qeyd edən dövlətimizin başçısı o gündən bu günə qədər xüsusi təyinatlıların böyük və şərəfli yol keçərək, Vətən müharibəsində böyük qəhrəmanlıq göstərərək tarixi Zəfərimizin əldə olunmasında xüsusi rol oynadıqlarını vurğulayıb: "Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimizin səbəbləri aydındır. O vaxt nizami ordu yox idi, ordu quruculuğu aparılmırdı, ölkə rəhbərliyində olan şəxslər isə öz vəzifə borcunu yerinə yetirə bilməmişdir. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi və 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Beləliklə, bizim torpaqlarımızın işğalı əfsuslar olsun ki, reallığa çevrilmişdir".

Beləliklə, bizim torpaqlarımızın işğalı əfsuslar olsun ki, reallığa çevrilmişdi və Ermənistan da, ona havadarlıq edən dairələr də bilir ki, bu gün nə qədər revanşdan danışsalar da müharibə dövründə fərarilik edən erməni toplumu ilə Azərbaycanın yaratdığı reallığa qarşı gəlmək mümkün deyil. Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında bütün mümkün ssenarilərə uyğun davranmağa hazırdır və bütün şərtlərdə dövlətimizin maraqları ən yüksək səviyyədə təmin ediləcək. Əminik ki, bütün bunlar Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Qarabağa, sözün bütün mənalarında, Böyük Qayıdış hərəkatını da sürətləndirəcək. Çünki Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

## Byorn Berge: "Azərbaycan müxtəlif mədəniyyət və din nümayəndələrinin görüş məkanına çevrilib"



Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində zəngin təcrübəsi var və bu istiqamətdə uzun illərdir ki, mühüm addımlar atır. Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoqa dair vacib konfranslara ev sahibliyi edib. Azərbaycan müxtəlif mədəniyyət və din nümayəndələrinin görüş məkanına çevrilib. Bu, bir daha göstərir ki, Azərbaycan bütün dünyanın ehtiyac duyduğu dini və mədəni dözümlülük probleminə olduqca həssas münasibət bəsləyir.

Bu fikirləri Fransanın Strasburq şəhərində Avropa Şurası Nazirlər Kabinetinə İtaliyanın sədrliyi çərçivəsində keçirilən dinlərarası dialoqa həsr edilmiş "Din və sülh, din və insan hüquqları üzrə dinlərarası dialoq" adlı konfransın moderatoru, Avropa Şurası Baş katibinin müavini Byorn Berge AZƏRTAC-a müsahibəsində deyib.

O bildirib ki, dinlərarası, mədəniyyətlərarası dialoqun təşviqinə və bu mövzuya dair konfransların keçirilməsinə daha çox ehtiyac var. "Strasburq konfransında vacib məsələlərə toxunuldu, fikir mübadiləsi aparıldı. Bu konfransın nəticələri müzakirə olunacaq və gələcəkdə belə konfranslar müxtəlif ölkələrdə təşkil olunacaq. Azərbaycan tərəfi də belə bir konfransa özünün ev sahibliyini təklif etdi. Biz bunu yüksək qiymətləndiririk.

## Xorvatiya mətbuatı Azərbaycanın azad edilmiş ərazilərindəki mina problemindən yazıb




Xorvatiyada təşkil olunan "Mina Hərəkatı" 18-ci beynəlxalq simpoziumu ərəfəsində bu ölkənin nüfuzlu "Vecernji List" qəzetində "Ottava Konvensiyandan iki onillik sonra - Azərbaycan, ərazisi ən çox minalanmış ölkələrdən biri" sərlövhəli geniş məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən Azərbaycan ilə Ermənistan arasında bütün hərbi əməliyyatlara son qoyulmasını ehtiva edən üçtərəfli Bəyanatın imzalandığı vaxtdan bu günədək işğaldan azad olunmuş ərazilərimizdə Ermənistan tərəfindən qəsdən və kortəbii şəkildə basdırılmış minaların partlaması nəticəsində aralarında qadınlar, uşaqlar da daxil olmaqla 150-dən çox insanın, habelə 1992-ci ildən bəri isə 3500-dən çox şəxsin öldüyü və ya ağır yaralandığı diqqətə çatdırılıb.

Postmünaqişə dövründə Azərbaycanın azad edilmiş ərazilərində mina və digər partlayıcı sursatların mövcudluğunun azərbaycanlı mülki şəxslərin təhlükəsizliyi və sağlamlığı üçün ciddi təhlükə yaratdığı bildirilib. Həmçinin vurğulanıb ki, azad edilmiş ərazilərin kütləvi şəkildə minalanması Azərbaycan hökumətinin bu ərazilərdə geniş bərpa və yenidənqurma planlarının həyata keçirilməsinə ciddi maneə yaradır. Ən əsası isə bunun yüz minlərlə məcburi köçkünün öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtma kimi fundamental hüququnun təmin olunmasına mənfi təsir göstərdiyi bildirilib.

Məqalədə Ermənistan tərəfindən təhvil verilmiş mina xəritələrinin dəqiqliyinin cəmi 25 faiz təşkil etdiyi, bunun Ermənistanın qeyri-səmimi mövqeyi və etibarlı tərəfdaş olmadığını göstərdiyi diqqətə çatdırılıb.

# YAP Veteranlar Şurasının təşkilatçılığı ilə "Şəxsiyyət və zaman" mövzusunda konfrans keçirilib

**Mayın 5-də Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının təşkilatçılığı ilə Xəzər rayonu, Şağan Mədəniyyət Mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Şəxsiyyət və zaman" mövzusunda konfrans keçirilib. Əvvəlcə tədbir iştirakçıları Xəzər rayonunda ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzüblər.**

Konfransda ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.






Tədbiri giriş sözü ilə açan YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov ulu öndər Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi ümummilli liderimiz Heydər Əliyevdir. Prezident İlham Əliyevin liderliyi ilə Heydər Əliyev siyasəti ölkəmizdə uğurla davam etdirilir. Bu siyasət davamlı olaraq Azərbaycana nailiyyətlər qazandırır.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq bir dövr dövlətçiliyimizin və xalqımızın intibahında tarixi bir mərhələ təşkil edib: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanışın formalaşması dövrü oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmiz məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq".

Xəzər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Elşən Qurbanov isə bildirib ki, bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət dayanır. O, Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başladığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb və qeyd edib ki, bütün bu işlərin reallaşmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xüsusi rolu var.



Konfransda çıxış edən YAP Veteranlar Şurasının üzvü Xeyrəddin Qoca ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb. Onun sözlərinə görə, Heydər Əliyev hələ sovetlər dönəmində respublikamıza rəhbərlik edərkən neqativ hallara qarşı qətiyyətli mübarizə aparıb. Yaradıcı insan kimi məni Heydər Əliyev şəxsiyyətində ən çox cəlb edən xüsusiyyət onun malik olduğu cəsarət, fədakarlıq, qətiyyət, humanizm, mərhəmət, əsl vətəndaş mövqeyi, azərbaycançılıq hissləridir. Ulu öndərin xilaskarlıq missiyasından da ətraflı bəhs edən X.Qoca qeyd edib ki, Heydər Əliyev xalqımızın yaddaşında əbədi yaşayacaq.

YAP Veteranlar Şurasının üzvü, professor Adilə Abbasova da çıxışında ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərindən bəhs edib. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən A.Abbasovanın sözlərinə görə, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. O, ulu öndər Heydər Əliyevin zəngin irsinin hər zaman öyrəniləcəyini vurğulayıb. Daha sonra konfrans diskussiya şəraitində davam edib, iştirakçıların sualları cavablandırılıb.

# "E-KÖŞK" layihəsi təqdim olunub

5 may tarixində Medianın İnkişafı Agentliyində "E-KÖŞK" qəzet və jurnalların elektron yayım platformasının təqdimatı olub. SİA-nın verdiyi məlumata görə, çap mediası subyektlərinin rəhbərlərinin iştirakı ilə keçirilən tədbirdə bildirilib ki, qlobal informasiya mühitinin modernləşməsi, qabaqcıl texnologiyaların media sahəsində geniş tətbiqi və digər innovativ yeniliklərin sahədə yaratdığı ehtiyaclar və müşahidə edilən müasir tendensiyaların nəzərə alınaraq hazırlanan "E-köşk" portalı rəqəmsal çap mediası məhsullarının abunə və satışının təşkil edildiyi platformadır. Vurğulanıb ki, plaformanın ənənəvi çap mediasını hər kəs üçün daha əlçatan etməsi, oxuculara mütəmadi olaraq yenilənən məlumat bazasından qəzet və jurnalları zaman və məkandan asılı olmayaraq asanlıqla əldə edə bilmək imkanı yaratması nəzərdə tutulur. Qeyd olunub ki, "E-köşk" portalı vasitəsi ilə oxucular ölkədə baş verən yeniliklərdən daima xəbərdar olmaqla yanaşı, sərbəst şəkildə rəqəmsallaşdırılmış arxivdən faydalana biləcəklər.





Baş redaktorlar bu platformanın ənənəvi çap mediasının rəqəmsal mühitə uyğunlaşması, iqtisadi dayanıqlılığının artırılması və informasiya cəmiyyətinə keçidin sürətləndirilməsi istiqamətində innovativ addım olduğunu qeyd ediblər. Sonra layihə ətrafında səsləndirilən təkliflər nəzərə alınmaqla, "E- köşk" layihəsinin yekun variantının hazırlanaraq ictimaiyyətə təqdim olunması ilə bağlı qərar qəbul olunub.

Tədbirdə həmçinin Medianın İnkişafı Agentliyi tərəfindən media subyektləri üçün hazırlanan "Redaksiya siyasəti və peşə etikası qaydaları" ilə bağlı müzakirələr keçirilib. Bildirilib ki, hazırda media subyektlərində həmin nümunəvi formaya əsasən, müzakirələr aparılır və media subyektlərinin özləri tərəfindən onların təkmilləşdirilməsi və hər bir media subyektinin özünə uyğun redaksiya siyasəti çərçivəsində həmin peşə etikası qaydalarının təsdiq olunması prosesinə başlanıb. Qeyd olunub ki, bu qaydaların tətbiq olunması, hər bir media subyektində müəlliflik hüquqlarının qorunmasına və ümumilikdə media sahəsində peşə etikasına ciddi riayət olunması prosesinə təkan verəcək.

# "Təhsil ölkənin gələcəyidir"



"Azərbaycanda məktəb infrastrukturları yenilənir. Artıq yeni məktəblər, baxçalar, təhsil müəssisələri tikilir və insanların istifadəsinə verilir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Razi Nurullayev bildirib.

Onun sözlərinə görə, bütün bu baş verənləri qiymətləndirmək lazımdır: "Mənim deputat olduğum İmişli rayonunda və Azərbaycanın digər bölgələrində təmirə ehtiyacı olan məktəblər var. Bununla əlaqədar olaraq da dövlət büdcəsindən pullar ayrılır və növbə ilə həmin məktəblər təmir olunur. Lakin bu gedişatla proses uzun çəkə bilər. Ona görə də mən təhsilin ölkəmiz üçün əhəmiyyətli olduğunu nəzərə alaraq demək istəyirəm ki, bu sahəyə daha çox investisiyalar ayrılmalı və özəl müəssisələrin açılması üçün əlavə stimullar yaradılmalıdır. Çünki təhsil ölkənin gələcəyidir. Bəzən elə məktəblərdə müəllimlər şagirdlərə dərs keçir ki, həmin məkanlarda savad almaq mümkünsüz olur. Ona görə ki, həmin məkan istənilən an uçma təhlükəsi ilə üz-üzə qala bilər. Heydər Əliyev Fondu bu sahədə böyük işlər görür və görməkdə də davam edir. Düşünürəm ki, cənab Prezident bu məsələlərə daha çox diqqət ayıracaq".

***Banuçiçək Hüseynli***

# Azərbaycanda təhsil istiqamətində çox böyük işlər görülür




**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Sabunçu rayonunda inşa edilən 304 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.**

Ümumilikdə Azərbaycanda təhsil infrastrukturunun təkmilləşdirilməsi, ucqar bölgələr də daxil olmaqla təhsil müəssisələrinin əsaslı şəkildə bərpası, yenidən qurulması və s. barədə görülən işlərlə bağlı SİA sorğu keçirib.

**Millət vəkili Əziz Ələkbərli:** ”Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycanın müxtəlif şəhər, qəsəbə və kəndlərində müxtəlif təhsil müəssisələrinin tikintisi və təmiri artıq bir ənənə halını alıb.



Bu sahə Fondun Prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir. Bu da təsadüfi deyil, millətin və dövlətin gələcəyi sağlam və bilikli gənclərin yetişməsinə bağlıdır. Təsadüfi deyil ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fəaliyyətə başlayan Heydər Əliyev Fondunun həyata keçirdiyi ilk layihələrdən biri məhz ”Yeniləşən Azərbaycana - yeni məktəb” proqramı olub və bu gün də uğurla davam edir. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi Azərbaycan balalarının yüksək səviyyəli təhsil alması üçün müasir standartlara cavab verən təhsil ocaqlarının yaradılması, tədrisin keyfiyyətinə mane olan bütün problemlərin aradan qaldırmasıdır. Bu gün Azərbaycanda elə rayon tapmaq olmaz ki, orada Heydər Əliyev Fondu tərəfindən tikilən və ya yüksək səviyyədə təmir edilən məktəb, bağça binalarının şahidi olmayaq. İnsanlar bu tikililəri dövlətin onlara, onların övladlarına yaratdığı gözəl şəraitin əyani nümunəsi kimi görürlər və bu, doğrudan da belədir. Hər şey vətəndaş üçündür, onların və onların övladlarının gələcəyi üçündür. Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində 304 nömrəli tam orta məktəbin inşası da bu sahədə atılan növbəti uğurlu addımlardan biridir. Dövlət başçısının və Birinci vitse-prezidentin məktəbin açılışında şəxsən iştirakı, məktəbdə müəllimlər və şagirdlər üçün yaradılmış şəraitlə şəxsən tanış olmağı isə yerlərdə məmurların məsuliyyətini daha da artırır.

Xatırlatmaq yerinə düşər ki, 2019-cu ildə Kürdəxanı qəsəbəsindəki 113 nömrəli məktəb də yenidən qurulmuşdu və o vaxt Birinci vitse-prezident Mehriban Əliyeva məktəbin açılışında iştirak edərkən sakinlər şagird sıxlığının nəzərə alınaraq qəsəbədə yeni məktəb binasının tikilməsini xahiş etmişdilər və qısa vaxtda bu, gerçəkləşdirildi. Təsəvvür edin, bir qəsəbədə cəmi üç il ərzində iki yeni tipli tam orta məktəb binası. Həm də torpaqlarımızı 30 il işğal altında saxlayan vəhşi bir düşmənlə Vətən müharibəsi apardığımız, Zəfər qazandığımız və işğaldan azad etdiyimiz böyük bir ərazidə bərpa-quruculuq işləri apardığımız bir dövrdə. Budur Xalqına, Vətəninə və Dövlətinə fədakarcasına xidmətin əyani sübutu. Budur 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərin İlham Əliyev və Mehriban Əliyeva düsturu!”

**Millət vəkili Kamran Bayramov:** ”Bu gün cənab Prezident və ölkənin birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Sabunçu rayonunda yeni inşa olunmuş məktəbin açılışı olub. Azərbaycanda hər zaman təhsilin inkişafına böyük diqqət və qayğı göstərilir. Son illərdə ölkəmizdə müasir standartlara cavab verən bir-birindən gözəl modern məktəblər inşa olunur. Həmçinin təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, pedaqoji işçilərin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər görülür. Bütün bunların hamısı dövlət siyasətinin və Heydər Əliyev Fondunun fəal fəaliyyətinin göstəricisidir. Son 15 ildə Azərbaycanda Heydər Əliyev Fondunun və dövlət xətti ilə 3000-dən çox məktəb binası tikilərək əsaslı təmir olunub. Artıq bu gün Azərbaycan məktəblər məzmunca da müasirləşir. Qeyd etmək istərdim ki, bu sahədə olan yeniliklər və müasir texnalogiyalardan istifadə olunması təhsil sahəsinin inkişaf etməsinə təkan verəcək. Ölkəmizdə aparılan təhsil islahatları nəticəsində cəmiyyətdə müəllim korpusu formalaşıb. Həmçinin cəmiyyətdə müəllim peşəsinə çox böyük hörmət var və bu hörmət getdikcə artmaqdadır. Məktəblərimizin gənclərimizin milli-mənəvi ruhda tərbiyələndirilməsi yönündə işlər görülür. Çünki müstəqil Azərbaycanın gələcəyi məhz bugünkü gənc nəsildən asılıdır. Düşünürəm ki, bu sahədə də Azərbaycan məktəblərinin və müəllimlərinin rolu böyükdür. Onlar da bu işin öhdəsindən layiqincə gəlirlər”.



**Təhsil eksperti Kamran Əsədov:** ”İlk növbədə qeyd edim ki, hazırda respublikanın təhsil sistemində davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişiklikləri aparılır, bir çox dövlət proqramları və layihələr həyata keçirilir. Son dövrlərdə təkcə paytaxt Bakıda deyil, ölkəmizin bütün regionlarında müasir məktəblər inşa edilir, yeni korpuslar tikilir, məktəblərimiz öz simasını dəyişərək Avropa standartlarına uyğunlaşdırılır. Ümumiyyətlə, məktəb tikintisi son 20 ildən artıqdır ki, ölkədə prioritet olaraq qalmaqdadır.



Yeni ümumtəhsil məktəblərinin tikintisi, əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı nəticəsində, ümumilikdə, ölkə üzrə indiyədək  milyondan çox şagirdin təlim-tədris şəraiti yaxşılaşdırılmışdır. Məktəblərin maddi-texniki bazasının bütövlükdə müasir tələblər səviyyəsinə çatdırılması məqsədilə onların təlim keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərən tədris laboratoriyaları, kitabxana və idman infrastrukturu ilə təmin olunması istiqamətində də ciddi addımlar atılmışdır.

Dövlətimizin təhsillə bağlı strategiyasının həyata keçirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti danılmazdır. Belə ki, Fondun təhsil sahəsində gördüyü işlər sırasında reallaşdırılan ”Yeniləşən Azərbaycana yeni məktəb” proqramı müstəsna əhəmiyyət kəsb edir. Qeyd edim ki, bu proses yalnız paytaxtı deyil, bölgələri də əhatə edib.

Rəsmi rəqəmlərə istinadən deyə bilərəm ki, Azərbaycanda məktəb tikintisi son illərdə sürətlə aparılır. Azərbaycanın ən ucqar kəndlərində belə şagirdlər yeni məktəblərdə təhsil alırlar. Bu onun göstəricisidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət təhsilin inkişafına, onun maddi- texniki bazasının möhkəmlənməsinə böyük qayğı göstərir.

Xatırladım ki, hal-hazırda ölkəmizdə 4472 orta məktəb binası var və son 10 il ərzində onların 3 mindən çoxu təmir olunub. Amma buna baxmayaraq hal-hazırda normal təhsil mühitinin və şəraitinin olmadığı, qəzalı vəziyyətdə olan məktəblər var.

Misal üçün 2017-2020-cici ildə ölkəmizdə 700 dən çox yeni məktəb tikilmiş, 44 məktəbdə əsaslı, 500-ə yaxın məktəbdə isə cari təmir aparılmışdır. Amma bu məktəblərin hamısı regionlarda yerləşir və az saylı şagird tutumuna malikdir. Ona görə də böyük vəsait sərf edib yeni, böyük məktəb binası inşa etməkdənsə, modul tipli məktəblər inşa etməklə bu problemi həll etmək olar.

Modul tipli məktəblərdən Avropa və Amerikada istifadə edilir. Bu, daha çevikdir, sökülüb-daşınması daha optimaldır, təhlükəsizlik yüksək səviyyədədir, daha keyfiyyətli dizayn əsasında formalaşdırılır. Ənənəvi məktəblərdə, daha çox tikinti materiallarından istifadə olunur.

Düşünürəm ki, 2022-ci ilin qədər ölkədə qəzalı vəziyyətdə olan məktəbləri modul tipli məktəblərlə əvəz etməklə təhsilin inkişafına təkan vermək olar.

Hal-hazırda ölkədə yüzlərlə qəzalı vəziyyətdə, hər an uçub, dağılıb ciddi fəsadlar törədə biləcək məktəb binaları var. Ölkənin iqtisadi gücü bütün məktəb binalarını müasir standartlara cavab verəcək səviyyədə təmin etməyə imkan verir.

Aparılan islahatlar təhsilin bütün sahələrini əhatə etdiyi kimi, yeni məktəblərin tikintisinə, yeni avadanlıqla təchiz edilməsinə, qəzalı məktəblərin bərpasına və köhnələrin təmirinə də əsaslı şəkildə geniş imkanlar yaratmışdır. Prezident İlham Əliyev bu sahədə islahatların sürətlə həyata keçirilməsini təmin etmiş, ölkənin təhsil sistemi əsaslı şəkildə yenidən qurulmağa başlamışdır. Dövlət başçısı çıxışlarında dəfələrlə bildirmişdir ki, Azərbaycanda bir dənə də olsun qəzalı məktəb qalmayacaq. Azərbaycanda məktəb tikintisi son illərdə sürətlə aparılır. Azərbaycan Prezidenti andiçmə mərasimində bu məsələyə toxunaraq demişdir ki, ümumiyyətlə, deyə bilərəm ki, son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib.

Azərbaycanın ən ucqar kəndlərində belə şagirdlər yeni məktəblərdə təhsil alırlar. Bu onun göstəricisidir ki, dövlət təhsilin inkişafına, onun maddi- texniki bazasının möhkəmlənməsinə böyük qayğı göstərir. Prezident İlham Əliyev bu barədə danışarkən qeyd etmişdir ki, Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanda bir dənə də olsun qəzalı vəziyyətdə məktəb qalmasın.

Son vaxtlar modul tipli məktəblərin tikintisinə də xüsusi diqqət yetirilir. Hazırda ucqar kəndlərdə bütün müasir avadanlıqla təmin edilən və tezliklə istifadəyə verilə bilən modul tipli məktəblərin tikintisi gedir.

Heydər Əliyev Fondunun bu sahədəki xidmətləri böyükdür. Fondun təşəbbüsü ilə Bakıda və regionlarda yeni məktəblər, uşaq bağçaları, uşaq evləri, internat məktəbi binaları tikilib istifadəyə verilib, əsaslı təmir və bərpa olunub, müasir avadanlıqla təchiz edilib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva yeni istifadəyə verilən məktəb və uşaq bağçalarının açılış mərasimlərində iştirak edir, kollektivlərlə görüşür, onlara milli təhsilimizin inkişafında uğurlar arzulayır.

Ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş dövlət proqramları da məktəb tikintisinin genişlənməsinə əhəmiyyətli stimul vermişdir. Məktəb tikintisini regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması, Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilib.

Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, əsaslı təmiri, müasir avadanlıqla, laboratoriyalarla təminatı nəticəsində iki və üçnövbəli məktəblərin sayı xeyli azalıb.

Müstəqillikdən sonra aparılan islahatlar nəticəsində Azərbaycanın elə regionu yoxdur ki, orada yeni məktəb binaları tikilməsin, yaxud mövcud məktəblər təmir edilməsin.

Təhsil islahatları təkcə məktəb tikintisi ilə məhdudlaşmır. Bu məktəblərdə təhsilin keyfiyyəti də yüksəlməkdədir. Müəllim hazırlığı, kurikulumun (tədris proqramlarının) hazırlanması, yeni dərsliklərin yaradılması və digər sahələrdə də islahatlar davam edir. Yeni dərslik siyasətinin tətbiqi, bu siyasətin həyata keçirilməsi üçün müstəqil qurum olan Dərslikləri Qiymətləndirmə Şurasının yaradılması, müəllimlərin işə qəbulu qaydaları ilə bağlı tətbiq edilən yeniliklər son illər qazanılan uğurlardır.

Bir sözlə, istər məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, istərsə də təhsilin digər sahələrində aparılan islahatların məqsədi keyfiyyətin yüksəldilməsidir. Lakin işlər bununla yekunlaşmır. Hazırda respublika üzrə cəmi 4500 məktəb var, onların çox hissəsi yenidən tikilib və bu proses davam edir. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin mühüm strateji istiqamətlərindən biri və bəlkə də ən başlıcasıdır.

Əlbəttə ki, görülən bu işlər və qarşıya qoyulan strateji hədəflər Azərbaycan təhsilinin parlaq gələcəyindən xəbər verir. Bu isə onu deməyə əsas verir ki, təhsil sahəsində əsası Ümummilli liderimiz tərəfindən qoyulmuş islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən yeni mərhələdə və yeni keyfiyyətdə uğurla davam etdirilir və bu sahədə atılan genişmiqyaslı addımlar ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər əldə etməsinə və nəhayət etibarilə, Azərbaycan dövlətinin sürətli inkişafında əsaslı baza rolunu oynayır. Bir sözlə, dövlətin təhsil sisteminin inkişafı prosesinə mütəmadi və yüksəksəviyyəli diqqətinin nəticəsində bu sektor da keyfiyyətcə yeni və ardıcıl inkişaf müstəvisinə qədəm qoyub. Beləliklə, Azərbaycan təhsili özünün yüksək inkişaf dövrünü yaşayır.

Təhsilin inkişafı ilə bağlı dövlət başçısının təsdiq etdiyi müvafiq dövlət proqramları hazırda Azərbaycan hökuməti tərəfindən uğurla icra edilir. Bu proqramlar orta məktəblərdə kurikulum, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili, Azərbaycanın ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasını və s. sahələri əhatə edir. Bu gün məhz Ulu öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər sistemini ehtiva edən ənənələr Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına xidmət edir. Bu da, şübhəsiz, ölkəmizin milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir.

Ölkəmizdə təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb və bu proses davam etməkdədir. Bu proses təkcə paytaxt ilə məhdudlaşmır, ən ucqar bölgələri də əhatə edir. Təsadüfi deyil ki, son 13 ildə respublika ərazisində heç bir dövrdə müşahidə olunmadığı qədər məktəb binası tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub, köhnə tədris müəssisələri bərpa və əsaslı təmir edilib.

Hazırda biz yeni dərs ili ərəfəsindəyik. Sentyabrın 15-də bütün təhsil müəssisələrində yeni tədris ilinə start veriləcək. Ənənəvi olaraq bu dərs ili ərəfəsində də dövlətimizin başçısı İlham Əliyev yeni tikilən və ya əsaslı təmir olunaraq istifadəyə verilən məktəblərin açılışında iştirak edir və görülən işlərlə şəxsən tanış olur. Bütövlükdə, son 13 ildə ölkəmizdə 3 mindən artıq məktəb tikilərək istifadəyə verilib və ya əsaslı şəkildə təmir olunub. Bu prosesdə Heydər Əliyev Fondunun fəaliyyəti də xüsusilə qeyd olunmalıdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycan təhsilinin inkişafına mühüm töhfələr verir. Yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, məktəbəqədər müəssisələrin və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsil müəssisələrinin müasir avadanlıqlarla təchiz edilməsi, əsaslı təmir və bərpa işlərinin aparılması kimi istiqamətlərdə Heydər Əliyev Fondunun göstərdiyi müstəsna xidmətlər misilsizdir.

Ümumiyyətlə, son illər ərzində təhsil sahəsinə ayrılan böyük vəsaitlər hesabına bütün tədris müəssisələrinin maddi-texniki təminatı xeyli dərəcədə yaxşılaşıb. Bütün ali məktəblərin müasir texnika və avadanlıqla təchiz olunması üçün xeyli iş görülüb. Hesab edirəm ki, biz hazırda həyata keçirilən islahatların nəticələrini və ölkəmizdə təhsilin keyfiyyətinin yüksəlməsini daha aydın görməkdəyik.

Bu gün dövlət tərəfindən ardıcıl şəkildə atılan addımlar təhsil sisteminin, idarəetmənin müasir prinsipləri üzrə təşkilinə təkan verməkdədir. Həyata keçirilən islahatlar, Azərbaycan iqtisadiyyatına qoyulan sərmayələrin həcminin artırılması elm və təhsilin, sosial sahə və institutların inkişafına səbəb olmaqla yanaşı, müxtəlif sahələr üçün yararlı, yüksəksəviyyəli kadr potensialının formalaşdırılması işinə də geniş imkanlar yaradır. Bu proses həm Azərbaycanda peşəkar kadr potensialının yetişdirilməsi, həm də gənclərin müxtəlif ölkələrdə təhsil almasına geniş şərait və imkanlar yaradılması vasitəsilə həyata keçirilir.

Bunlarla yanaşı, təhsilin inkişaf etdirilməsi, keyfiyyətcə yeni tərəqqi meyilləri və motivlərinin əldə olunmasına təkan verən mühüm amillərdən biri də bu sahəyə yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsidir. Məhz bu proses Azərbaycanın təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya olunmasına gətirib çıxaran başlıca meyilləri özündə ehtiva edir. Bu onu deməyə əsas verir ki, Azərbaycanın təhsil sisteminin mühüm vəzifə, məqsəd, meyil, motiv və inkişaf prioritetləri dünyada cərəyan edən proseslərə inteqrasiya olunmaqla, beynəlxalq standartların mənimsənilməsi və təhsil təcrübəsinə tətbiq olunmasıyla müəyyənləşdirilir. Elə bu prosesin fonunda əldə edilən nəticə və göstəricilər ölkəmizin təhsil sistemində mütərəqqi meyillərin davamlı xarakter almasına gətirib çıxarır. Bu isə ümumi inkişaf konsepsiyasının təhsil istiqamətinin əsaslarının möhkəmləndirilməsinə və intellektual inkişaf səviyyəsinin daha da yüksəldilməsinə səbəb olur”.

***Banuçiçək Hüseynli***

# Sürücülər pərdə və plyonkadan istifadədə niyə maraqlıdırlar

ARAŞDIRMA

**Avtomobil insanın həyatını asanlaşdırır. Avtomobil olmasa, insan müasir həyatın inkişaf etdiyi ritmə düşə bilməz. Xüsusilə böyük və sıx məskunlaşan şəhərdə maşın lazımdır. Məsələn, ictimai nəqliyyatla hərəkət edən şəxs, lazım olan yerə çatmaq üçün bir neçə saat sərf edir. Üstəlik, çöldə hava pisdirsə, yağış yağırsa və ya güclü külək əsirsə, avtomobil lazımdır. Belə vəziyyətlərdə öz nəqliyyat vasitəsi olmadan insan evdən çıxmaq istəmir. Həmçinin, əgər ciddi zərurət soyuq havada onu işə getməyə məcbur edərsə, soyuqdəymə və bir neçə gün xəstələnmə riski ilə üzləşir. Buna görə də, böyük şəhərlərin sakinləri şəxsi avtomobilin olmasını çox yüksək qiymətləndirirlər. Axı, bu, onlara çox vaxt qənaət etməyə kömək edir. Müasir həyatın tempi avtomobili sadəcə olaraq əvəzolunmaz nəqliyyat vasitəsinə çevirir.**





Əksər insanlar üçün avtomobil dəbdəbəli olmaqdan çıxaraq, sadə bir nəqliyyat vasitəsinə çevrildi. Təbii ki, bahalı avtomobillər var. İnsan belə maşının sükanı arxasına keçəndə digər sürücülərdən üstün olduğunu hiss edir. Bir çox insan avtomobilini ailəsinin üzvü kimi qəbul edir.

Günəş effektinin yüksək olduğu havalarda avtomobilə minmək istəmirik. Çünki güclü isti avtomobili od kimi edir və normal idarə etməyə imkan vermir. İsti havalarda maşına minərkən hiss etdiyimiz nəfəs darlığı isə çox çətindir. Lakin bu, təxminən 3-5 dəqiqə çəkir. Təsəvvür edin ki, avtomobiliniz saatlarla qızmar istinin altında qalıb. Bu dəhşətdir. Bəs avtomobilimizi qızmar istidən necə qoruya bilərik?

Maşınların çölünü qızmar günəşdən qorumaq üçün isti şam üsulunu tətbiq edə bilərsiniz. 40°C və 90°C-də əriyən şam avtomobilin səthinə vurulduqda toz, ultrabənövşəyi şüalar, təzyiqli su və kimyəvi dərmanlara məruz qalan avtomobil səthini qorumağı bacarır.

Avtomobilin şüşə filmi varsa, salonu şüşə filmi olmayan avtomobillərdən bir qədər soyuq olacaq. Günəş şüalarını böyük ölçüdə sındıran pəncərə filmi UV və IR şüalarından xilas olmaq üçün istifadə edilən üsullardan biridir.

Zaman-zaman istifadə etdiyimiz üsullardan biri olan avtomobil örtüyü üsulu keyfiyyətli materialdan istifadə edildiyi təqdirdə avtomobilinizin boyasını və salonunu böyük ölçüdə qoruyur. Lakin örtüyü alarkən onun hava keçirən strukturda olmasına diqqət edək. Keyfiyyətsiz plastik örtüklər günəşin təsiri ilə deformasiyaya uğraya və avtomobilin səthinə toxunaraq onu zədələyə bilər. Əlbəttə ki, rəng faktorunu unutmayın. Tünd rənglərdən qaçaraq açıq rənglər seçə bilərsiniz. Tünd rənglər həmişə günəşi daha çox udur.



Bəs, gəlin görək ümumiyyətlə avtomobildə pərdə və plyonkadan istifadə etməkdə əsas səbəb nədir? Sürücülər niyə bunda maraqlıdırlar? SİA məsələ ilə bağlı ekspert və mütəxəssislərin fikirlərini öyrənib.

**Nəqliyyat eksperti Elməddin Muradlı:** "Avtomobillərdə pərdə və plyonkadan istifadə bütün dünyada var. Dünyada olan sürücülərin buna olan marağı da başadüşüləndir. Çünki bu bir aksesuardır. Bu avtomobili gözəlləşdirərək daha görkəmli görsənməyinə şərait yaradır. Daha doğrusu, avtomobildə hərəkət edən sürücünün və sərnişinlərin rahatlığını təmin edərək onları günəş şüasından qoruyur.

İlk növbədə avtomobilin görünüşünə təsir göstərir deyə maraq böyükdür. Buna dünyanın bir çox ölkələrində ümumiyyətlə heç bir məhdudiyyət qoyulmur. Hətta bəzi ölkələrdə sürücülər demək olar ki, avtomobilin dörd bir yanını plyonka edə bilir. Sadəcə bir çox ölkələr bunu qadağan edir. Avropa İqtisadi Komissiyasının 42 saylı qərarında göstərilir ki, sürücüdən arxada qalan şüşələrin tündləşdirilməsi sürücünün öz öhdəliyinə buraxılır. Bunun da təhlükəsizliklə bağlı izahı var ki, sürücüdən arxada qalan şüşələr onun üçün heç bir təhlükə deyil. Bu səbəbdən də icazə verilir. Azərbaycanda da bu məsələ böyük problem yaradırdı, insanlar lüzumsuz yerə cərimə olunurdu. Bu cərimə də 150 manat olmaqla kifayət qədər böyük bir məbləği əhatə edirdi. Lakin artıq Azərbaycan da Avropa İqtisadi Komissiyasının qərarına uyğun olaraq qanun qəbul etdi. Daha doğrusu, ötən ilin əvvəlləri Milli Məclis tərəfindən İnzibati Xətalar Məcəlləsinə və Yol Hərəkəti Haqqında qanuna dəyişiklik olundu. Ardınca da cənab Prezident tərəfindən sərəncam imzalandı. Bu sərəncamla da həmin qanun qüvvəyə mindi. Eyni zamanda, Nazirlər Kabinetinə 3 ay vaxt verildi ki, bununla bağlı standartları müəyyənləşdirsin. Artıq 1 il 1 ay olub və Nazirlər Kabineti hələ də standartı müəyyənləşdirməyib. Sürücülər də bu səbəbdən problemlə qarşılaşırlar. Yol polisi sürücüyə əsaslı şəkildə deyir ki, "qanun dəyişikliyi qüvvəyə minməyib, Nazirlər Kabineti hər hansı qərar verməyib, qanun tələbi budur və mən də bunu icra edirəm". Problem də buradan yaranır ki, bu boşluqlar niyə aradan qaldırılmır və sürücüləri bu qədər incitməkdə məqsəd nədir?".



**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Pərdə və plyonkalar hər zaman aktual problem olaraq cəmiyyətimizdə müzakirələrə səbəb olub. Qurumlar öz işlərini yüngülləşdirmək üçün bunlardan istifadənin qadağan edilməsini tələb edir.



Sürücülər, xüsusən də gənclər xarici filmlər və kompyuter oyunlarının təsiri altında, biraz da qanlarında "avtoşluq" həyəcanı olduğuna görə plyonka və pərdələrin maşınlara vurulmasının tərəfdarıdırlar. Hər iki tərəfin də öz arqumentləri var.

Hüquq Mühafizə Orqanları və aiddiyyatı dövlət qurumları bildirirlər ki, vətəndaşların təhlükəsizliyi, görmə maneəsi olmaması, avtomobildə cinayətkar qrup üzvlərinin qeyri-qanuni əməllərdən istifadə etməməsi üçün plyonka və pərdələrin yığışdırılması vacibdir. Vətəndaşlar isə bildirir ki, plyonka və pərdələrlə bağlı təhlükə varsa, bu təhlükə plyonkasız da mümkündür. Həmçinin, şəhərin bütün küçələri təhlükəsizlik kameraları ilə təchiz edilib".

İnsanlar həmişə gizliliyə və qaranlığa meyl ediblər. Həm kimnənsə gizlənən, həm də gizli olana baxmaq istəmək insanın təbiətində var. Bu bizim təbiətdən gələn heyvani tərəfimizə dəlalət edir. Yəni, insan həmişə ovçu olaraq qaranlıq yerləri ovlamaq axtarışındadır.

Mən, ictimai nəqliyyatdan istifadə etsəm də, fərdi nəqliyyat vasitəm də var. Amma heç vaxt plyonka və pərdəyə meyl etməmişəm. Çünki gizli heç bir iş görmürəm. Avtomobil idarə edərkən başqalarının məni görməyi məndə qıcıq yaratmır. Bu çox normal bir haldır. İstərdim ki, bizim insanlar da bunu normal qarşılasınlar".

***Ayşən Vəli***

# Paşinyan ölkədə keçirilən etiraz nümayişlərinə münasibət bildirib

***Ermənistanın Baş naziri Nikol Paşinyan bəyan edib ki, demokratiya ölkənin ən mühüm elementidir və bunu davam etdirəcəklər. SİA-nın əldə etdiyi məlumata görə, Ermənistanın rəsmi xəbər agentliyi "Armenpress"in məlumatına görə, Paşinyan Milli Assambleyadakı çıxışında demokratiyanın Ermənistanın ən mühüm elementi olduğunu və bunu davam etdirəcəklərini bildirib: "Mən istəmirəm ki, siz heç vaxt demokratiyanı hökumətin və ya dövlətin zəifliyi kimi şərh edəsiniz".***

Paşinyan hökumət əleyhinə etirazlara toxunaraq, "Müxalifətçi həmkarlarımız bir vaxtlar yürüşə çıxdığımız üçün bizi ələ salırdılar, indi isə yürüş etmək qərarına gəliblər" deyib. Digər tərəfdən, müxalifət liderlərindən İşxan Saqatelyan parlament binasını ələ keçirməyi planlaşdırdıqları barədə deyilənləri təkzib edib.

"Biz heç bir binanı ələ keçirməyəcəyik, təxribat etməyəcəyik", - Saqatelyan bildirib.

Qeyd edək ki, Ermənistanın Milli Təhlükəsizlik Xidməti (MTX) dünən mayın 1-dən ölkədə hökumət əleyhinə etirazlarını artıran nümayişçilərin sessiya zamanı parlament binasını ələ keçirməyi planlaşdırdığına dair etibarlı kəşfiyyat məlumatı əldə etdiyini bildirib.



Digər tərəfdən, paytaxt İrəvanda Fransa meydanında hökumət əleyhinə etirazlar davam edir. Polis bazar ertəsi keçirilən nümayişlərdə 189, çərşənbə axşamı keçirilən nümayişlərdə isə 237 nəfərin saxlanıldığını açıqlayıb. 2020-ci ilin noyabrında Azərbaycanın Qarabağda qələbəsindən sonra Ermənistan hökumətinin bölgədəki siyasətinə etiraz edən və Baş nazir Nikol Paşinyanın istefasını tələb edən müxalifət mayın 1-dən İrəvan küçələrinə toplaşıb.



# “Yeni dünyada yeni Azərbaycan quran Lider”

## "Səs" qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş növbəti dəyirmi masa keçirilib

**”Səs” qəzetinin redaksiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş ”Yeni dünyada yeni Azərbaycan quran Lider” adlı növbəti dəyirmi masa keçirilib. Dəyirmi masada Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Milli Məclisin deputatı Jalə Əliyeva, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Amil İsmayılov və Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin İdarə Heyətinin üzvü Salman Salmanov iştirak edirdilər.**

Tədbiri giriş sözü ilə açan ”Səs” qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyev qeyd etdi ki, ”Səs” qəzeti cəmiyyətin maraq dairəsində olan ən aktual, əhəmiyyətli mövzular çərçivəsində hər zaman dəyirmi masalar təşkil edib. O bildirdi ki, ”Səs” qəzeti olaraq cəmiyyətdə nüfuz sahibi olan bir neçə ziyalının iştirakı ilə Ulu Öndərin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və formalaşdırılması istiqamətində gördüyü mühüm işlərə bir daha nəzər salmağa qərar verdik: ”Ümummilli Lider Heydər Əliyevin istər sovet məkanında yaşadığımız illərdə - 1969-cu ildən başlayaraq Azərbaycanın Birinci Katibi vəzifəsində çalışdığı zamanda, istərsə də 1993-cü ildə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dönüş, inkişaf, eləcə də, ölkəmizin dünya məkanında özünəməxsus yer tutması Onun məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş müharibəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıdaraq Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atdı. Ulu Öndər ölkədə ictimai-siyasi, iqtisadi sabitliyin yaradılmasına uzaqgörən, məqsədyönlü siyasəti ilə nail oldu”.

İ.Əliyev dəyirmi masa iştirakçılarına XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti, Onun ölkənin çətin anlarında atdığı tarixi addımlar və qərarlar ətrafında fikirlərini bölüşməyi bildirdi.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEV SOVET REJİMİNİN İDEOLOJİ MƏSƏLƏLƏRƏ XÜSUSİ HƏSSASLIQLA YANAŞDIĞI VAXTLARDA AZƏRBAYCANIN MİLLİ MARAQLARI ÜÇÜN MÜMKÜN OLAN BÜTÜN İŞLƏRİ GÖRDÜ

JALƏ ƏLİYEVA:

- Azərbaycan xalqı sözün əsl mənasında xoşbəxt xalqdır ki, Ulu Tanrı nadir şəxsiyyətlərdən birini, bəlkə də bir neçə əsrdən bir xalqın qismətinə yazıla biləcək böyük Siyasi Xadimi, Ulu Öndəri bizim qismətimizə yazıb. İstər 20-ci əsr, istər 21-ci əsr, istərsə də bundan sonrakı bütün dövrlərdə Ulu Öndər Heydər Əliyevin adı, şəxsiyyəti hər bir zaman Azərbaycan üçün yol göstərən olacaqdır. Məhz Onun sayəsində bütün dünya Azərbaycana tamamilə başqa bir prizmadan baxmağa başladı. Ulu Öndər Heydər Əliyev hələ sovet rejiminin ideoloji məsələlərə xüsusi həssaslıqla yanaşdığı vaxtlarda Azərbaycanın milli maraqları üçün mümkün olan bütün işləri gördü. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycanda böyük iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdı. Qısa zaman kəsiyində Azərbaycan ittifaq tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan respublikaya çevrildi. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə XX əsrin 70-ci illərindən elə bir tarixi bünövrə yaradıldı ki, onun möhkəm dayaqları üzərində gələcəkdə müstəqil Azərbaycanın qurulması, yeni tarixinin əsasının qoyulması labüd idi. Həqiqətən də sovet dönəmində xalqımızın dahi oğlunun Azərbaycan üçün gördüyü bütün işlər böyük gələcəyə hesablanmışdı və bu potensial müstəqillik illərində ölkəmizin başlıca dayaqlarını təşkil etdi. Azərbaycanın bugünkü tarixini Heydər Əliyev 1960-cı illərdə yazmış oldu.

Azərbaycan dilinin ana dili olması haqqında Azərbaycan Konstitusiyada müddəanın hazırlanıb, yazılması birbaşa Ulu Öndərin sayəsində oldu. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi və təsbit olunmasından sonra Azərbaycan dilinin istifadəsində və inkişafında yeni mərhələ başladı.

Dövlət dili uğrunda ardıcıl mübarizə aparan Ümummilli Lider ziyalıları, xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvələri səfərbər etmişdir. Biz burada müstəqil ölkədən deyil, SSRİ-nin bir respublikasından danışırıq. Burada da təbii ki, müstəqil, gələcəyə istiqamətlənmiş addım atmaq böyük bir cəsarət tələb edirdi. Bəli, Heydər Əliyevin xatirələrini oxuduqda görürük ki, o hələ ötən əsrin 50-60-cı illərində ölkəsini azad görmək istəyərək, atdığı bütün addımları bu istiqamətə yönəldib.

Azərbaycanda sənətin, mədəniyyətin, ədəbiyyatın inkişafı istiqamətində atılan addımlar, Azərbaycan iqtisadiyyatının gücləndirilməsi üçün Azərbaycanda böyük zavodların, fabriklərin tikilməsi, ölkəmizdə o zaman üçün imkansız olan müstəqil, hərbi kadrları hazırlaya bilən Naxçıvanski adına Hərbi liseyin açılması, azərbaycanlı gənclərin ölkə hüdudundan kənara təhsil almağa göndərilməsi və s. bu kimi bir çox tədbirlər bu günümüzə, müstəqil Azərbaycanın inkişafına istiqamətlənmişdi. Heydər Əliyev qətiyyətlə öz ideallarını qəbul etdirirdi.

Bildiyimiz kimi, Ermənistan Respublikası, ermənilər və onların pərdəarxası havadarları hər bir zaman Azərbaycana, türk dünyasına qarşı məkrli planlarını həyata keçirmək istəyiblər. Amma qarşılarında Heydər Əliyev kimi bir Qüdrətli Simanın olması onlara bu addımları atmağa imkan vermədi.

### ULU ÖNDƏR HƏMİŞƏ XALQLA BİRGƏ OLDUĞUNU, ONUN TALEYİ İLƏ YAŞADIĞINI TARİXİ XİDMƏTLƏRİ İLƏ SÜBUT ETMİŞDİR

- Ulu Öndər Heydər Əliyev 81 yaşının 35 ilini bilavasitə Azərbaycana, onun inkişafına həsr edib. Onun ümumiyyətlə bütün fəaliyyəti Azərbaycan üçün olub və Heydər Əliyev ölkəyə rəhbərliyə gəlməmişdən öncə bildiyimiz kimi, Azərbaycanın Təhlükəsizlik Komitəsinin sədri olub. O, bu vəzifədə ilk azərbaycanlı olub.

Ulu Öndər Heydər Əliyev olmasaydı, bizim bir çox ziyalılarımız repressiyalara məruz qala bilərdi. Heydər Əliyev onlarla söhbət apararaq hərəkətlərində olan səhvlərin nədən ibarət olduğunu izah edirdi.

Bütün mənalı ömrünü Azərbaycan xalqının tərəqqisinə həsr etmiş Ulu Öndər Heydər Əliyev özünün əməli fəaliyyəti ilə doğma xalqının əbədi məhəbbətini qazanaraq əsl Ümummilli Liderə çevrilmişdir. Həm əvvəlki hakimiyyəti dövründə, həm də müstəqillik illərində Ulu Öndər həmişə xalqla birgə olduğunu, onun taleyi ilə yaşadığını tarixi xidmətləri ilə sübut etmişdir. Sovet imperiyasının tərkibində yaşadığız illərdə Azərbaycan ilbəil geriləyirdi. Rəhbərlik də bu gerilənmənin öhtəsindən gələ bilmirdi. 1969-cu ildən başlayaraq Azərbaycanın hərtərəfli inkişafı və tərəqqisi üçün Heydər Əliyevin gördüyü işlərin bəhrəsini bu gün xalqımız daha yaxından hiss edir. Hələ o dövrdə belə Ermənistanın bizə qarşı ərazi iddiası var idi.

Heydər Əliyev qısa müddət ərzində Azərbaycanı irəli çəkdi və artıq Azərbaycanı tanımağa başladılar. O, Azərbaycanın kadr hazırlığına xüsusi diqqət yetirirdi. Azərbaycanda ilk hərbi məktəbi də Ulu Öndər yatardı. Keçən əsrin 70-80-ci illərində qurub-yaratdığı, zəngin respublikaya çevirdiyi Azərbaycanı 1993-cü ildə məhv olmaqdan xilas edib rəvan inkişaf yoluna çıxardı. Ulu Öndər Heydər Əliyev bizə azad, demokratik, güclü, zəngin, xalqının rifah və təhlükəsizlik şəraitində yaşayışını təmin edən, dünya birliyinin tamhüquqlu üzvü olan bir dövlət bəxş etmişdir. Bu gün hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq, qurucusu və memarı Ulu Öndər Heydər Əliyev olan dövlətimizlə fəxr edir. Cənab Prezident İlham Əliyev Ulu Öndərin layiqli davamçısı, ləyaqətli siyasi varisidir. Cənab Prezident İlham Əliyevin əzmkarlıqla həyata keçirdiyi siyasət respublika iqtisadiyyatında böyük uğurlara zəmin yaratdığı kimi, hər bir vətəndaşın həyatında da irəliləyişlərə səbəb olub. Uğurlu siyasət həm də Azərbaycanın beynəlxalq imicini gücləndirib. Bu gün Azərbaycan Ulu Öndərin ideyalarından nur alaraq gələcəyə doğru inamla addımlayır.

### ULU ÖNDƏR DÖVLƏTİMİZİN ÜMUMİ XİLASKARI OLDUĞU KİMİ AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ DA XİLASKARIDIR

AMİL İSMAYILOV:

- Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni və sosial sahələrində Heydər Əliyevin gərgin əməyi, ideyası özünü göstərir. Ulu Öndər Heydər Əliyev siyasətinin fəlsəfəsində elmilik var. Onun bütün addımları çox böyük elmi təməyül üzərində qurulub. Ulu Öndərin siyasəti bugünkü gənclərin inkişafında böyük rol oynayır. Yürüdülən siyasət Azərbaycanın gələcək hədəflərini əhatə edir. Bu hədəfləri təhlil etsək görərik ki, bunlar çox strateji hədəflərdir. Bu dövlətçiliyin ən mühüm məqamlarındandır. Ulu Öndər dövlətimizin ümumi xilaskarı olduğu kimi Azərbaycan Milli Elmlər Akademiyasının da xilaskarıdır. Yəni, Onun dönüşü bir qədər geciksə idi, Azərbaycan Milli Elmlər Akademiyası adlı bir qurum da olmayacaqdı. ”Elmlər Akademiyasına keçmiş illərdə də, son illərdə də mənim hörmətim, diqqətim və qayğım olmuşdur. Ancaq hesab edirəm ki, bizim elmimizə xüsusən də Elmlər Akademiyasına qayğı diqqət daha da artıq olmalıdır. XX əsrdə Azərbaycan xalqının ən böyük naliyyətlərindən biri ölkəmizdə elmin, təhsiliin sürətlə inkişaf etməsidir. Biz bununla fəxr edirik. Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elmi müəsisəsidir. Biz Akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq. Heç vaxt imkan verməkolmaz ki, Akademiyamız yüksək səviyyəli elmi tədqiqat institutlarımız, özəl elmi müəsisələr arasında itsin. Buna yol vermək olmaz. Azəbaycan Elmlər Akademiyası dövlətin Akademiyasıdır. Prezidentin birbaşa himayəsi altındadır, tabeliyindədir və Prezidentin qarşısında cavabdehdir. Bir daha bunu deməyə məcburam ki, Azərbaycan Respublikasının müstəqil Elmlər Akademiyası Azərbaycanın ən yüksək elmi müəsisəsi, elmi təşkilatıdır”. Bu fikirləri Ulu Öndər Heydər Əliyev səslәndirmişdir. Bu fikirlərdə bütün Akademiyanın taleyi, fəaliyyəti əks olunub. Hər zaman bunun şahidi olmuşuq ki, dahi dövlət rəhbərləri ən çox qayğını elmə göstəriblər.

Sovet dönəmində də təhsil sistemində olan islahatlar məhz Heydər Əliyevə tapşırılmıdır. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra istər universitetlərin, istərsə də akademiyada institutların sayı dəfələrlə artdı, akademiya üzvlərinin sayı çoxaldı.

### BUGÜNKÜ GƏNCLİYİMİZİN UĞURLARI MƏHZ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TƏMƏLİNİ QOYDUĞU GƏNCLƏR SİYASƏTİNİN NƏTİCƏSİDİR

SALMAN SALMANOV:

Müstəqil dövlətimizin ilk illərində Azərbaycanın bütün sahələrində olduğu kimi, bəlkə də, yüzilliklərə qədər hesablanmış gənclər siyasətinin əsası qoyulmuşdur. Ulu Öndər gənclər siyasətinin əsasını Azərbaycana ilk rəhbərlik etdiyi dövrdə qoymuşdur. 1988-1993-cü illərdə ölkədə baş verən xaos zamanı ölkə gəncliyi demək olar ki, məhv olmuşdur. Universitetlərdən kənarlaşmış, müxtəlif qruplara qoşulmuşdular. Azərbaycan gəncliyi tamamilə məhv olurdu. Bu dövrdə isə Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə ilk işlərindən biri gənclər siyasətinin yenidən formalaşdırılması oldu. Həmin dövrdə gərgin bir dövrdə Heydər Əliyevin Gənclər və İdman Nazirliyinin əsasını qoyması gənclər siyasətinin təməlini qoydu. Bundan sonra Ulu Öndərin özünün şəxsən iştirakı ilə gənclər forumunun təşkili və həmin forumdan sonra 2 fevral tarixinin Gənclər Günü elan olunması da görülən əhəmiyyətli işlər sırasında idi.

Dövlətin gənclər siyasətinin bugünkü layiqli davamçısı məhz ölkə Prezidenti Cənab İlham Əliyevdir. Biz bu gün gözəl məktəblərdə, ali təhsil müəssisələrində təhsil aldıq. Bu gün Azərbaycan gənci ölkəni tərk etmədən belə ikili diplom layihələri sayəsində dünyanın nüfuzlu universitetlərindən məzun ola bilirlər. Bütün bunlar bizim gəncliyimizin təməli sayılır. Eyni zamanda Cənab Prezident İlham Əliyevin 2007-ci ili gənclər, 2020-ci ili könüllülər ili elan etməsi də gənclərə göstərilən böyük qayğı və diqqətin göstəricisi idi. Eyni zamanda ölkə başçısı hər zaman çıxışlarında biz gənclərə güvəndiyini də vurğulayıb. 44 günlük Vətən müharibəsi zamanı da Azərbaycan gənci öz vətənpərvərliyi, gücünü bütün dünyaya nümayiş etdirdi. Həmin gəncliydir ki, Qarabağa görmədən ona bağlı böyümüşdü və bu gün də məhz o gənclər torpaqlarımızı azad etdi. Bütün sadaladıqlarımın hər biri Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasətinin nəticəsi idi. Biz gənclərə göstərilən bu etimad qarşısında da borcumuzdur ki, hər zaman ölkəmizin maraqlarını qoruyaq. Bugünkü gəncliyimizin uğurları məhz Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasətinin nəticəsidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Birinci və İkinci Qarabağ müharibələri: itirdiklərimiz, qazandıqlarımız



1988-ci il idi. Azərbaycan Sovet Sosialist Respublikaları İttifaqının tərkibində, yəni böyük imperiyanın buxovlarında əzilməkdəydi. Biz onda məktəbli idik. Ermənilərin xalqımıza qarşı soyqırımları, əzəli torpaqlarımızın vaxtilə onlara verilməsi haqqında çox məlumatımız var idi. Ancaq bizə elə gəlirdi ki, həmin hadisələr tarixin müxtəlif zamanlarında baş verib, bitib, artıq o cür hadisələr təkrarlanmaz. Axı ermənilərlə qonşu idik, gedirdilər, gəlirdilər... Azərbaycanın bütün şəhər, rayon, kəndlərində bizimlə birlikdə yaşayırdılar. Nə bilərdik ki, bu qonşuluqdan kənar olmuşlar yeni planlarla, yeni arzularla yaşayırlar. Elə həmin il sərhədlərimizdən gələn xəbərlər bütün həyatımızı alt-üst etdi. Ermənilər sərhəd rayonlarımızı atəşə tutur, insanlar qorxu, vahimə içərisində yaşayırdılar. Beləliklə, günlər keçdikcə xəbərlər bəzən səngiyir, bəzənsə yenidən gündəmə gəlir, hər kəsin diqqəti sərhədlərimizə yönəlirdi. Sən demə bütün bunlar qarşıda Birinci Qarabağ Müharibəsinin başlanması üçün görülən tədbirlər imiş...

## Birinci Qarabağ Müharibəsi: satılmış torpaqlar, ordusuz xalq, böyük itki

Beləliklə Birinci Qarabağ Müharibəsi başladı. Əgər 1988-1990-ci illər dağıntıları, səksəkələri, itkiləri ilə bu müharibənin başlanğıcı idisə, sonrakı iki il isə torpaqlarımızın bir-birinin ardınca ermənilər tərəfindən işğal olunduğu illər oldu. Niyə işğal olunurdu bu əzəli Azərbaycan torpaqları, səbəb nə idi? Bunun bir çox səbəbləri var idi. Birincisi, bu hələ iki əsr öncənin nəsihəti idi ki, ermənilər Azərbaycan torpaqlarında yerləşdirilməli, yerli əhali sıxışdırılıb aradan çıxarılmalıdır. İkincisi, artıq 1918-ci ildə olduğu kimi, xalqın müstəqillik qığılcımlarının alova çevrilməsi SSRİ-ni narahat etməyə başlamışdı. Bu respublikanı əldə, həm də əsarətdə saxlamaq, eyni zamanda ermənilərin "Böyük Ermənistan" yaratmaq arzuları fonunda işğal siyasətindən daha əhəmiyyətlisi ola bilməzdi.

İşğal siyasəti isə çox da çətinliklə başa gəlmədi. Çünki ölkəmizə rəhbərlik edən, xalqını qoyub yadların sözünü dinləyən, xalqını, mənəviyyatını, namus anlamında olan torpağını yox, vəzifəsini düşünən ozamankı Azərbaycan rəhbərləri ilə bu işdə əlbirlik asanlıqla başa gəldi. Qarabağlılar bütün bunlardan xəbərsizcə öz torpaqlarını qorumağa çalışarkən, ölkəmizin digər yerlərindən onlara köməyə gedənlər canlarını bu torpaqlar yolunda qurban verərkən sən demə o torpaqlar çoxdan satılıbmış. Bu səbəbdən də orada döyüşənlərə heç bir yarbdım, köməklik göstərilmirdi. Bütün bunları sonradan torpağından didərgin salınanlar, zorla qovulanlar, köçürülənlər, hansı ki, o döyüşlərdə iştirak etmişlər, etiraf edirdilər. Etiraf edirdilər ki, dəfələrlə yardın edilməsi tələbinə baxmayaraq rəhbərlik susurdu.

Adı var, özü yox orduya sahib idik. SSRİ Azərbaycanda güclü ordunun formalaşmasına əsla maraqlı deyildi. Çünki bizim ordumuzun olması ona sərf etmirdi. Bu, böyük bir siyasətin nəticəsi idi ki, ordumuz o səviyyədə saxlanılırdı. Bunu o dövrlərdə əsgəri xidmətdə olub, fəhlə batalyonlarında xidmətini başa vuran övladlarımızın da simasında yaxşı görmüşdük, öz-özlüyümüzdə təsdiq etmişdik. Ordumuz bizdən tonlarla neft mənimsəyənlərin əvəzində bizə verdikləri müasirlikdən əsər-əlaməti olmayan köhnə silah, sursat, texnika yığnağı idi. Bu isə möhkəm silahlandırıb üstümüzə göndərdikləri qonşu erməninin qarşısında bizi aciz vəziyyətinə salmaqdan başqa bir şey deyildi.

O zaman işğal olunan Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Füzuli, Xocalı və bunlar kimi digər rayonlarımızın əhalisi düşmən qarşısına ov silahı, təsərrüfat alətləri ilə çıxırdılar. Nə edəcəkdilər o qədər güclü silahlanmış erməniyə? Bizim rəhbərlik necə? Bilə-bilə ki, torpaqları satıb, heç bir köməklik də göstərməyəcək, ermənilər isə ən müasir silahlarla silahlanıblar, 5 ilə qədər əsgəri xidmətdə saxladığı əsgərləri də, o torpaqların dinc sakinlərini də gözünü belə qırpmadan qırğına verirdi. Bilə-bilə insanlarımızın məhvinə, şəhid olmasına, yaralanmasına şərait yaradırdı.

Elə bu səbəbdən də Birinci Qarabağ Müharibəsində itkilərimizin sayı çox oldu. Prezident cənab İlham Əliyevin dediyi kimi: "Birinci Qarabağ müharibəsində şəhidlərimiz olub, bu günə qədər 4 minə yaxın insan itkin düşmüş hesab olunur.

Aydın məsələdir ki, onlar həyatda deyil, həyatını itiriblər və ümumiyyətlə, 15 mindən çox şəhidimiz olubdur. Buna baxmayaraq, torpaqlarımız da əldən gedib".

Çünki o müharibə sadəcə insanların öz ata-baba yurdlarını qorumaq müharibəsi idi. Nəticə etibarilə isə o qədər torpağı itirdik, soydaşlarımız bir qərinəyə qədər qaçqın, köçkün, didərgin adlarını daşımalı, ölkənin şəhər və rayonlarına sığınmalı oldular.

## 30 il Qarabağsız

Bəli, ötən 30 ilin başlanğıcında edilən böyük səhvlə düz otuz il Qarabağsız yaşamalı oldu qarabağlılar. Qurulu evlərini, əzizlərinin məzarlarını, həyət-bacalarını, həyət dolu mal-heyvanlarını, toyuq-cücələrini, bar üstündə saysız-hesabsız ağaclarını, ən əsası isə torpaq ətrini geridə buraxıb didərginə, köçkünə, qaçqına çevrildilər. Müharibədən sonrakı ilk illərdə şəraitsiz evlərdə, çadır şəhərciklərdə olmazın çətinlikləri ilə qarşılaşdılar. Sonrakı illərdə onlar üçün hərtərəfli şərait yaradıldı, problemləri dövlətimiz tərəfindən diqqətdə saxlanıldı. Lakin onların yurd təşnəsi hələ sızlamaqda, torpaqlarına qovuşmaq istəkləri içlərini göynəltməkdə idi. Dünyasını dəyişən yüzlərlə insan oldu 30 ildə. Ürəkləri yurd eşqiylə parça-parça olmuş insan. Bir daha torpağının ətrini duymayan, əzizinin qəbrini ziyarət edə bilməyən, ürəyi nisgilli, qərib məzarlı insanlar...

Qarabağı bir daha görə bilməyən insanlar... O torpaqlara bir daha ayağı dəyməyən insanlar. O bulaqların suyundan içə bilməyən insanlar. Qarabağ yalnız yuxularında onların olan insanlar...

İnsanlar o taleni yaşamağa vadar edilmişdilər. Nə idi onların günahı? Kimlərinsə vəzifə kürsüsünə qurban getmiş, doğma evindən illərlə ayrı düşmüş, sinəsinə dağ çəkilmiş, ata-qardaşını, övladını mürahibənin alovlarına qurban vermiş, ən əsası isə torpağı-namusu, şərəfi əlindən alınmış insanların yaşadığı acıların cavabını kim verəcək? Əlbəttə torpaqları gözüyumulu satanlar verəcək. Həm də tarix qarşısında verəcəklər buna cavab. Dünya durduqca övladları, nəvə-nəticələri, kötücələrinin hər birindən ata-babalarının səhvi soruşulacaq. Onlar buna cavab verməli olacaqlar. Utanacaqlar, xəcalət çəkəcəklər, hansı nəslin davamçıları olduqları üçün hər zaman bu üz qarasını daşıyacaqlar. Qoy tarix və zaman onların qiymətini də, cavabını da özü versin.



## İkinci Qarabağ Müharibəsi: dövlət-xalq birliyi, güclü ordu, ZƏFƏR

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə hakimiyyətə gəlişindən sonra işğalına son qoyulan torpaqlarımızın geri alınması da ötən illərdə hər gün həllini gözləyən məsələ olmuşdu. Torpaqlarımızın geri qaytarılmasının danışıqlar yolu ilə mümkün olmazsa, müharibə yolu ilə olacağını söyləyən ulu öndərin davamçısı, Prezident cənab İlham Əliyevin də ölkəmizə rəhbərlik etdiyi illərdə bu məsələ fəaliyyətinin əsas istiqaməti olmuşdur. 17 il ərzində beynəlxalq təşkilatlara müraciət edilmiş, onlar Azərbaycanın haqq səsinə səs verməyə, ədalətsizliyə son qoymağa çağırılmış, erməni xisləti, yalanı dünyanın mötəbər kürsülərindən ifşa edilmişdir.

Ötən illər ərzində dövlət-xalq birliyi ölkənin hərtərəfli inkişafına səbəb olmuş, xüsusilə iqtisadiyyatımız güclənmiş, bu isə güclü ordunun yaranması ilə nəticələnmişdir. Hər il dövlət büdcəsindən ordumuzun inkişafına ayrılan vəsait müasir təchizat məsələlərinin həlli olmuşdur ki, bunun 2020-ci ilin sentyabr ayının 27-dən noyabrın 10-dək davam edən İkinci Qarabağ Müharibəsində şahidi olduq. Həm də tək biz yox, bütün dünya şahidi oldu ki, Azərbaycan nəyə qadir imiş.

44 günlük müharibədə əldə etdiyimiz Zəfərə gənclərimizin sayəsində nail olduq. Bu isə ötən illərdə ölkəmizdə gənc nəslin düzgün yetişdirilməsinin, onların vətənpərvər ruhda böyüməsinin nəticələri idi. Vətənin harayına səs verən, sinəsini Vətən yolunda sipər edən, ölümün gözünə dik baxan gənclərimiz bu xalqa qələbənin şirinliyini daddırdılar. Onlar Ali Baş Komandanın ətrafında sıx birləşərək planlı şəkildə-az itkisiz və qısa vaxtda torpaqlarımızı qəsbkarlardan geri aldılar. Dövlətimizin başçısının dediyi kimi: "...İkinci Qarabağ müharibəsində şəhidlərimiz az olub. Halbuki, hər bir şəhidin həyatı təkrarolunmazdır, əvəzolunmazdır. Ancaq əməliyyatlar aparılan zaman vacib şərtlərdən biri də o idi ki, itkilərimiz az olsun və torpaqlarımız da geri qayıtdı".

Bəli, bütün dünyanın şahidi olduğu həmrəyliyimizlə, yaşından asılı olmayaraq yüksək vətənpərvərliyimizlə, 1990-cı illərlə müqayisəyəgəlməz ordumuzla, ən əsası isə qüdrətli sərkərdəmizlə Qarabağda Zəfər qazandıq.

## Zəfərimiz Birinci Qarabağ Müharibəsi ilə İkinci Qarabağ Müharibəsinin fərqini ortaya qoydu

Bu Zəfər Birinci Qarabağ Müharibəsində niyə uduzduq, niyə o qədər şəhid verdik suallarına cavab oldu. İkinci Qarabağ Müharibəsində qələbəmizin səbəbini izah etdi. Nəticə etibarilə Zəfərimizin əldə olunmasında Vətən sevgisi amilinin dayandığını göstərdi. Bu Zəfərlə o illərdə ölkəmizin rəhbərlərinin sevgisizlikləri fonunda böyük Vətən sevgisini ölkəmizin rəhbərində gördük. Həm də onun sonsuz olduğunu gördük. Bu sevgi bölünüb torpaqlarımıza paylananda isə onların hər birinin azad olunması, anası Azərbaycana qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpasının böyük arzu olduğunu gördük. Gördük ki, ölkəmizin rəhbəri bütün gücü ordu quruculuğuna, dünyanın fikrini Qarabağa yönəltdi. Qarabağın geri alınması üçün illərlə iş apardı. Dünyaya üz tutdu, torpaqlarımızın dinc yolla, qan tökülmədən alınmasına çalışdı. Lakin buna nail olmayanda müharibə yolu ilə düşməni yerində oturtmasını, diz çökdürməsini də gördük.

Əgər Birinci Qarabağ Müharibəsində 15 mindən çox şəhidimiz olmuşdursa, İkinci Qarabağ Müharibəsində 3 minədək şəhidimiz oldu. O qədər şəhidlə əldən gedən torpaqlar geri alındı. Bu, müharibənin planlı şəkildə aparılmasının, güclü ordunun, orduya bacarıqla, səriştə ilə rəhbərliyin göstəricisi, yazılan şanlı tarixdir. O tarix ki, vərəqləndikcə hünərdən, qeyrətdən, namusdan, ləyaqətdən, vətənpərvərlikdən, həmrəylikdən söhbət açacaq. Minlərlə şəhidi olan Birinci Qarabağ Müharibəsi isə bu tarixin səhifələrinə əliyalın insanların hünəri ilə yanaşı, həm də xalqına xəyanət edən rəhbərlərin adı, pis əməlləri ilə yazılıb. Bax, Zəfər bunları ortaya qoydu.

## Biz müzəffər xalq kimi yaşayırıq

Bu gün ölkəmizdə həm Birinci, həm də İkinci Qarabağ Müharibəsi şəhidlərinin və qazilərinin qiymətləndirilməsi, adlarının əbədiləşdirilməsi, onların ailələrinə və qazilərə göstərilən diqqət, dövlətimiz tərəfindən onların hər birinin övlad qayğısı ilə əhatə olunması insanda qürur yaradır. Bunun özü də dünyaya bir mesajdır. Mesajdır ki, bizim Vətənimiz, torpağımız nə qədər əzizdirsə, övladlarımız da o qədər dəyərlidir. Həyatını torpaq uğrunda qurban verən, sağlamlığını Vətən üçün fəda edənlər əbədi bir sevgiyə layiqdirlər. Çünki onlar bu sevgiləri ilə yanaşı, həm də böyük bir xalqa müzəffər xalq kimi yaşamağı nəsib ediblər. Prezident cənab İlham Əliyevin dediyi kimi: Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır. Çünki canını fəda edir ki, torpaqlar azad olunsun və ədalət bərpa olunsun, xalqımızın ləyaqəti bərpa olunsun. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib... Biz artıq ilyarımdır ki, müzəffər xalq kimi yaşayırıq. Əvvəllər torpaqları işğal edilmiş xalq kimi yaşamışıq.

***Mətanət MƏMMƏDOVA***





# Dövrün əsas qlobal problemləri NƏLƏRDİR?

**"İndiki dövrdə hər hansısa bir mənbə axtarsaq ki, dövrün qlobal problemləri hansılardır? Bu mövzu üzrə adətən əhali, ərzaq problemləri barədə danışırlar". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu bildirib. "Amma mən uzun illərdir bu məsələ ilə məşğul olmuşam və gəldiyim müəyyən nəticələr var. İndiki dövrün ən böyük, bir nömrəli problemi fəlsəfi mahiyyət daşıyır. Çünki Yer üzü tamamilə yeni bir hal alıb. Bu dövrün fəlsəfəsi yoxdur. Ona görə də üzərində işlədim və "agəngyol" fəlsəfəsini təqdim etdim. Bu, ölkədə bir çoxlarına ciddi görünmür. Amma uzun, 10 ilə yaxın müddətdir ki, təqdim etdiyim "ahəngyol" fəlsəfəsi dünya üzrə tanınır.**



Qərb fəlsəfəsi yer üzünü 20-ci əsrə qədər gətirib çıxarıb. 20-ci əsrdən sonra əsas düşüncə ilə informatik, öz maddi-maraqlarına uyğun olaraq fəlsəfə yaradıb, 20-ci əsrə qədər gətirib çıxarır. 20-ci əsrdə elm, texnika inkişaf etdi, SSRİ dağıldı və dünya vahid bir məkana çevrildi. Bu zaman məlum oldu ki, indiki dövrün fəlsəfəsi ortada yoxdur. Bu gün Yer üzündə qanlar axırsa, bu dünyanın indiki dövrdə arzuolunan fəlsəfəsi yoxdur. Şərq 14-cü əsrə qədər qazandığı nailiyyətləri Qərb başa düşmədən ancaq rasional istiqamətdə getdi. Rasional olmayan aləmi nəzərə ala bilmədi.

İkinci əsas məsələ isə odur ki, dünyada insanlar çoxalır və bütün mərkəzlər böyük həyəcan içərisindədir. İnsanlar sürətlə artdığı üçün Yer üzündə də resurslar çatmır. Digər bir tərəfdən insanlar əsasən Afrikada, müsəlman ölkələrində artır. Avropada isə get-gedə azalır. Üstəlik də Yer üzündə balans pozulur. Get-gedə Avropalıların ümumi çəkisi azalır. Bu da böyük həyəcan təbilinə səbəb olur. Əsas güc mərkəzlərinin olduğu Avropa əhalinin azalmasının qarşısını almaq üçün tədbirlər görməyə çalışır.

Üçüncü məsələ isə sürətlə silahlanma prosesidir. Hazırda silahlanmaya milyardlarca pul xərclənir. Halbuki bu pula Yer üzünün inkişafına, insanların güzəranının yaxşılaşdırılmasına yönəldilsə, hər şey daha yaxşı olar. Yer üzündə hazırda bununla bağlı geosilahlanma artır. Ölkələr arasında qarşıdurma yaranır, sivilizasiyalar arasında toqquşmalar artır. Müsəlman ölkələrinə qarşı xoşagəlməz siyasət gedir. Bunun nəticəsi olaraq da terrorizm inkişaf etmiş olur. Bu isə qlobal problemdir. Digər bir qlobal problem isə inkişaf etməkdə olan ölkələrin problemləridir. Nəticədə 4 istiqamətdə qlobal problemlərə baxmaq olar.

Çox təəssüf ki, BMT kimi bir təşkilat daha çox sosial, adi, siyasi məsələlərə olduqca böyük yer verdikləri halda, mənəvi məsələlərin həlli üçün heç bir addım atmırlar. Şərqin 14-cü əsrə qədər formalaşdığı fəlsəfəsini, mənəvi məsələlərə lazımi dəyər verilmir. Buna görə də Yer üzü bu cür iğtişaşlar halındadır. Əslində isə çıxış yolunu tapmaq olar. Yəni biz elə işlər görməliyik ki, əhali özü-özünü tənzimləsin. Ciddi qlobal problemlər olsa belə, onların həllində çıxış yolu tapmaq da mümkündür"-deyə, Ə.Qəşəmoğlu bildirib.

***S. Hüseynli***

## Avtomobil hansı hallarda cərimə meydançasına aparılır?




"Avtomobilin cərimə meydançasına aparılması ilə bağlı qaydalar yol hərəkəti haqqında qanunda öz əksini tapıb. Eyni zamanda İnzibati Xətalar Məcəlləsində də bu qaydalar əks olunub". Bu sözləri SİA-ya açıqlamasında yol hərəkətləri qaydaları üzrə ekspert Elməddin Muradlı bildirib. Onun sözlərinə görə, düşünürəm ki, qanunvericilikdə bununla bağlı heç bir boşluq qalmayıb: "Əgər nəqliyyat vasitəsini sürücü sərxoş halda idarə edirsə, bu halda təbii ki, onun yanında ayıq olan bir şəxs yoxdursa, bu zaman nəqliyyat vasitəsi artıq cərimə meydançasına aparıla bilər.

Digər tərəfdən sürücü narkotik vasitənin təsiri altındadır və yanında avtomobili idarə edəcək şəxs yoxdursa və cinayət xarakterli avtomobil qəzasına səbəb olubsa, bu zaman da maşın cərimə meydançasına aparıla bilər. Vətəndaş sürücülük hüququ olmadan avtomobili idarə edirsə, etibarnamə yoxdursa, avtomibilin texniki parametrlərində hər hansı bir qüsur var və bu aradan qaldırıla bilmirsə, bu halda da nəqliyyat vasitəsinin cərimə meydançasına aparılması təmin oluna bilər. Sözsüz ki, bu cərimələrlə bağlı məsələyə də toxunmaq lazımdır. Cərimə təyin olunduğu gündən 2 ay ərzində ödənilmirsə, bu zaman nəqliyyat vasitəsinin saxlanılması barədə qərar çıxarılır. Əgər sürücü yerindəcə kart vasitəsilə ödənişi edirsə, bu zaman artıq avtomobil cərimə meydançasına aparılmaya bilər. Bütün bu məsələləri sürücülərimizin bilməsi onların özləri üçün də olduqca faydalıdır".

***Səbinə***

## "Şəhid ailələri və qazilərə qayğı dövlətin əsas prioritetidir"



"Müharibə əlillərinin sosial problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması sosial siyasətin tərkib hissəsidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib. Onun sözlərinə görə, dövlət başçısı tərəfindən imzalanan müvafiq fərman və sərəncamlara əsasən, əlillərə ödənilən pensiya və müavinətlərin məbləği davamlı olaraq artırılır, şəhid ailələri və qazilərin məşğulluq problemi aradan qaldırılır: "Bu vaxta qədər ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub. Bakının Sabunçu rayonu ərazisində müharibə əlilləri və şəhid ailələri üçün nəzərdə tutulmuş doqquzmərtəbəli 12 binadan, 576 mənzildən ibarət yeni yaşayış kompleksinin istifadəyə verilməsi sosial tədbirlərin davamıdır. 44 günlük Vətən müharibəsindən sonra prezident İlham Əliyevin tapşırığına əsasən, mənzil proqramı 5 dəfə genişləndirilib, şəhid ailələri və müharibə əlillərinə 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Dövlət başçısı bir daha bəyan etdi ki, bütün şəhidlərimizin ailələrinin məişət problemlərini həll edələcək.

"Bu, bizim borcumuzdur. Prezident kimi mənim və dövlətimizin borcudur. Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ailələrinə bu günə qədər 12 mindən çox mənzil verilib. Nəinki dövlət qurumları, istənilən insan çalışır ki, şəhid ailəsinə hansısa bir kömək göstərsin. Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək" deyən prezident İlham Əliyevin bu mövqeyi hər birimiz üçün nümunədir. Şəhid ailələri və müharibə əlilləri cəmiyyətin hər bir üzvü üçün əzizdir. Onların problemlərin həllində millət vəkilləri, məmurlar başda olmaqla hər kəs iştirak etməlidir. Çünki bu unsanlar Vətən uğrunda, bizim rahatlığımız, firavanlığımız naminə öz canlarından, sağlamlıqlarından keçiblər. Biz cəmiyyətin bu təbəqəsinə münasibətdə də milli həmrəylik nümayiş etdirməliyik".

## "Prezidentin rəhbərliyi ilə ölkəmizdə sosialyönümlü dövlət modeli formalaşdırılıb"

"Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosialyönümlü dövlət modeli formalaşdırılıb". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova deyib. Onun sözlərinə görə, bu həftə Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksinin açılışı oldu: "Doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət yeni yaşayış kompleksində sakinlərin rahatlığı üçün bütün lazımi şərait yaradılıb. Bu gün tam əminliklə demək olar ki, şəhid ailələri, qazilərə dövlətin maddi dəstəyi ilə yanaşı mənəvi dəstəyi də ən yüksək səviyyədədir. Pezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tez-tez şəhid ailələri, müharibə işirakçıları, müharibə əlilləri ilə görüşür, onların problemləri ilə maraqlanırlar. Vətən uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvlərinin dövlət tərəfindən qayğı ilə əhatə olunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Döyüşlərdə yaralanmış, sağlamlığını itirmiş qazilərimiz bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunur.

Bu həftə, müqəddəs Ramazan bayramında şəhid ailələri və müharibə əlillərinə 200 mənzil və 50 avtomobilin təqdim olunması Prezident İlham Əliyevin sosial qayğıya ehtiyacı olan ailələrə xüsusi diqqətinin mühüm tərkib hissələrindəndir".

Sevil Mikayılova fikirlərinə davam edərək həmçinin qeyd edib ki, bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə sosialyönümlü dövlət modeli formalaşdırılıb: "İstər pandemiya və ondan sonrakı dövrdə, istərsə də müharibə və postmüharibə dövründə



Azərbaycan dövləti daim sosial həssas qrupları öz nəzarətində saxladı və saxlayır. Postmüharibə dövründə əhalinin həssas qruplarına diqqət və qayğı daha da artıb. Prezident İlham Əliyevin göstərişi ilə postmüharibə dövründə icra olunan sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib.

Bu dövr ərzində şəhidlərin ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub",- deyə millət vəkili bildirib.

Qazilərin normal həyata qayıtması məsələsinə də toxunan S.Mikayılova bildirib ki, Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib".

S.Mikayılova onu da əlavə edib ki, Prezident İlham Əliyev tərəfindən məmurlar qarşısında da ciddi tələblər qoyulub ki, şəhid ailələrinə, qazilərə diqqət və qayğı daim olmalıdır: "Əlbəttə ki, bu həssas qruplara olan qayğı ancaq dövlətin gördüyü işlərlə məhdudlaşmamalıdır, cəmiyyət olaraq biz də bu prosesdə aktiv iştirak etməliyik. Düşünürəm ki, Azərbaycan xalqı Vətən müharibəsində göstərdiyi birliyi bu gün də nümayiş etdirir, bu gün də xalq öz dövlətinin yanındadır, öz qazisinə, şəhid ailəsinə sahib çıxır.

Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva başda olmaqla hər bir Azərbaycan vətəndaşı və hökumətimiz daim onların yanındadırlar. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətimizin prioritet istiqamətidir və əminik ki, onların rifahı üçün hərtərəfli sosial tədbirlər davamlı olacaq".

***Arzu Qurbanzadə***

# Azərbaycanın növbəti zəfəri - GÖRÜNMƏZ DÜŞMƏN ÜZƏRİNDƏ QƏLƏBƏ

Bəşəriyyəti həyəcana salan, saysız-hesabsız canlar alan, hələ də bir çox ölkələrdə insanları qorxu içərisində saxlayan koronavirus üzərində Azərbaycan mükəmməl qələbə qazandı və bu gözəgörünməz düşmənə də ölkəmiz qalib gəldi. Hazırda bir sıra ölkələrdə hələ də müvafiq təhlükələr gözlənildiyi halda, Azərbaycanda sözügedən bu virusun cilovlandığı göz önündədir və bu, yoluxma hallarının belə yox dərəcəsinə düşdüyü son günlərin göstəricilərində bir daha öz təsdiqini tapıb. Təbii ki, bu, hal Azərbaycanın 44 günlük müharibə ilə yanaşı, gizli, gözəgörünməz düşmən üzərində də növbəti zəfəridir, hansıki bu həm sevindirici, həm də qürurvericidir.

Xatırladığımız kimi, bir qədər öncə bəşəriyyət ona tamamilə yad olan, tanınmamış bir virusun peyda olduğu xəbərini aldı və bu, insanları qorxuya saldı. Təbii ki, qorxunun olması da anlaşılan idi, çünki peyda olan yeni virus, yəni koronavirus haqqında, onun müalicəsi barəsində bütün dünya, xüsusilə təbabət elmi tamamilə məlumatsız idi və bu virusa qarşı nə kimi tədbirlərin görüləcəyi bəlli deyildi. Əslində, virusun araşdırılması, barəsində məlumat əldə edilməsi, müalicəvi preparatların, peyvəndlərin müəyyənləşdirilməsi, tapılması müəyyən bir vaxt tələb edirdi və bu vaxt ərzində həmin virusa yoluxanların həyatına son qoyacağı riski çox böyük idi ki, bir çox insanın bu xəstəlik səbəbindən dünyasını dəyişməsi də bu baxımdan başadüşüləndir.

Bütün dünyada koronavirusa görə həyəcan təbili çalındığı vaxtlar yaddaşlardan silinən deyil. Hələ 2019-cu ilin sonu və 2020-ci ilin əvvəllərində dünya ölkələri bu virusla, koronavirusla nə edəcəyini, onun qarşısının alınması üçün nə kimi tədbirlər görəcəyini bilmirdi. Dünyanın bir çox fövqəl dövlətləri belə sözügedən virusla mübarizə tədbirlərində ləngidiyi səbəbindən böyük insan tələfatı ilə üzləşməli oldular. Xüsusən, Avropanın ən inkişaf etmiş ölkələrində, ABŞ kimi bir ölkədə koronavirus tüğyan etdi və çoxlu sayda insanın həyatına son qoydu. Hətta vəziyyətin nəzarətdən çıxma təhlükəsi də mövcud idi və ən qorxulusu da bu hesab olunurdu. Bütün dünya ölkələrində qapanmaların tətbiq edilməsi əbəs yerə deyildi və məqsəd həmin nəzarəti ələ almaq, itgiləri mümkün qədər azaltmaq idi. Lakin etiraf etmək lazımdır ki, peyda olan, hələ məlum olmayan virusa qarşı həmin ölkələr çox ləng hərəkətə keçmişdilər və ardınca da bunun acı nəticələri ilə qarşılaşmalı oldular.




Həqiqətən də sevindirici və qürurverici haldır ki, Azərbaycan bəşəri bəlaya ən tez reaksiya verən, ona qarşı ən tez tədbirlər planı hazırlayan, tətbiq edən ölkə oldu. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) pandemiya olaraq qeydə aldığı bu xəstəliyin yayıldığı ilk zamanlardan ölkəmiz müvafiq tədbirlərə əl atdı. Hətta bütün hazırlıq işləri də görüldü. Xatırladığımız kimi, xəstəliyin daha sürətlə yayılması üçün insanların evdə qalmasına, məsafədən işlərini aparmalarına, idarə etmələrinə şərait yaradıldı. Bir qrup insanların evdə qaldıqları zaman maddi sıxıntılarının qarşılanması üçün dövlətimiz onlara maddi köməkliklər göstərdi, gəlirlərinin qarşılanması üçün müvafiq tədbirlər həyata keçirildi, hansıki bu dövlət büdcəsi üçün böyük vəsaitlər hesabına başa gəlirdi, amma bunlar nəzərə alınmadı, insanların həyatı daha vacib hesab olundu. Bütün bunlar təbii ki, Azərbaycanda insan amilinin, vətəndaş amilinin prioritet olduğunu bir daha təsdiqlədi. Ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyev dəfələrlə vurğuladı ki, vətəndaşların sağlamlığı, onların həyatının qorunması bütün məsələlərdən öndə durur və ölkə vətəndaşları daim diqqət mərkəzindədirlər. Biz vətəndaşlar da bu diqqətin, üstəlik qayğının dəfələrlə şahidi olduq və hələ də şahidi olmaqdayıq.

Bəşəri fəlakət insan həyatı üçün çox təhlükəli idi və bunu bütün dünya belə qəbul edirdi, hansıki ilk növbədə qabaqlayıcı tədbirlər görülməsi tələb olunurdu. Məhz belə bir vəziyyətdə yoluxmanın, müalicəyə ehtiyacı olan insanların sayının artacağı riski nəzərə alınaraq Azərbaycanda modul tipli xəstəxanaların sürətlə tikilib istifadəyə verilməsinə başlanıldı. Təkcə paytaxt Bakıda deyil, bölgələrdə də modul tipli xəstəxanalar istifadəyə verilirdi ki, yoluxmaya məruz qalan, müalicəyə ehtiyac duyan insanlara tibbi xidmət göstərilsin. Bunun üçün dövlətimiz külli moqdarda vəsait xərcləməli oldu və bu məqamda yenə də insan amili, vətəndaş amili ön planda dururdu və biz hər zaman bunun şahidi oluruq.

Xüsusilə qeyd etmək lazımdır ki, koronavirusa yoluxanların, xəstələrin dərmanlarla, peyvəndlərlə özü də pulsuz olaraq təmin edilməsi də dövlətimizin, dövlət başçımızın diqqət və qayğısının bariz nümunəsi hesab olunur. Haqqından qeyd etdiyimiz virusun ortaya çıxdığı hələ ilk vaxtlardan cənab Prezidentin tapşırığı və rəhbərliyi ilə hökumətimiz ölkəyə dərman preparatlarının gətirilməsini, eləcə də bütün xəstəxanalara pulsuz paylanmasını reallaşdırdı. Bunun ardınca vətəndaşlarımızın hər birinin pulsuz olaraq bir neçə mərhələdə peyvənd edilməsi də həyata keçirildi. İstənilən vətəndaşımız peyvənd olunmaqla bağlı müraciət etdiyi zaman heç bir çətinliklə qarşılaşmadı, əksinə, ən tez zamanda pulsuz olaraq peyvənd aldı ki, bu da ölkədə koronavirusa qarşı immun sisteminin möhkəmlənməsi ilə nəticələndi. Beləliklə də vətəndaşlarımız həm xəstəliyə yoluxmaqda, həm də yoluxsa belə onunla mübarizədə böyük immunitet qazanmış oldu ki, bu da hazırki nəticələrə, qazandığımız zəfərə vəsilə oldu, qələbəmizi şərtləndirdi.

Azərbaycan bütün dünyada belə koronavirusla mübarizəyə öz töhvəsini verdi. Ölkəmiz koronavirusa yoluxan xəstələrin müalicəsi üçün öz imkanlarını əsirgəmədi. İstər maddi yardımlar olsun, istər dərman vasitələri ilə təmin etmək olsun, istərsə də mübarizə tədbirlərinin aparılması olsun, hər bir istiqamətdə ölkəmiz əməli tədbirlərə imza atdı. Azərbaycan bu bəşəri bəlaya qarşı bütün dünya ölkələrini birliyə səslədi və təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ölkəmizin bu fəaliyyətini yüksək qiymətləndirdi. Təsadüfi deyil ki, bu gün həmin təşkilat, yəni ÜST Azərbaycanı koronavirusla mübarizdə ən uğurlu ölkələr siyahısında görür və təbii ki, bunu çox yüksək qiymətləndirir.

Bildiyimiz kimi, artıq may ayının ilk günündən etibarən ölkəmizdə qoruyucu tibbi maskalardan istifadəyə qoyulan tələblər aradan qaldırılıb. Doğrudur, vətəndaşlar öz istəkləri ilə bundan istifadə edə bilərlər, amma artıq bu heç də məcburi sayılmır. Tibbi maskalardan istifadə, yaxud onun aradan qaldırılması müzakirə mövzusu deyil, amma ölkəmizdə qoruyucu tibbi maskalardan istifadəyə qoyulan tələblərin aradan qaldırılması bir sıra məqamlara aydınlıq gətirir və elə müzakirə mövzusu da, düşündürən də budur. Nəyə görə qoruyucu tibbi maskalara qoyulan tələblər aradan qaldırıldı və buna səbəb nədir? İndi hər kəsi bu sual düşündürə bilər və düşünməkdə də hər kəs haqlıdır. Axı bir çox ölkələrdə qoruyucu maskaların istifadəsinə qoyulan tələblər hələ də aradan qaldırılmayıb.

Sözsüz ki, adından da göründüyü kimi, haqqında qeyd olunan tibbi maskalar qoruyucu funksiya daşıyır və virusdan mühafizə, onun yayılmaması üçün nəzərdə tutulub, istehsal edilib. Deməli, yalnız virus üzərində qələbəyə nail olunduğu zaman bu maskaların istifadəsinə qoyulan tələblər aradan qaldırıla bilər. Yalnız virusa qalib gəldikdən sonra insanlar qoruyucu tibbi maskalardan imtina edə bilərlər və bütün bunlar Azərbaycanın qələbəsi, Azərbaycanın növbəti zəfəri deməkdir. Diqqətə çatdırmaq yerinə düşərdi ki, koronavirus deyilən virus səbəbindən həyatını itirən vətəndaşlarımızın sayı müharibədə, düşmənlə savaş zamanı itirdiyimiz vətəndaşların sayından dəfələrlə çox oldu. Bu isə, koronavirusun da bir düşmən, özü də gözəgörünməz düşmən olduğunu təsdiqləyir. Bəli, artıq Azərbaycan növbəti zəfərə, görünməz düşmən üzərində də qələbəyə imza atdı və bunun bütün dünya da şahidi oldu. Şahidi oldu ki, Azərbaycan qüdrətli, güclü, doğru siyasət yürüdən humanist bir dövlətdir və hansı prizmadan, hansı rakursdan baxılırsa baxılsın, ölkəmiz qalib adına layıqdir, qalib ölkədir və ardıcıl olaraq zəfərlərə imza atır.

***İnam Hacıyev***

---

## "Bütün dünya Azərbaycanın qurucu dövlət olduğunu görəcək"

"Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonu Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində böyük dağıntılara məruz qalan digər rayonlarımızdan biridir. 30 il erməni işğal altında qalan rayonlarımız demək olar ki, yerlə yeksan edilib, bütün infrastrukturu, yaşayış evləri, milli və mədəni abidələri, hətta qəbristanlıqlar dağıdılıb. Ermənistan işğal etdiyi ərazilərdə nəinki tikinti işləri aparıb, heç daşı daş üstə də qoymayıb. Bütün yaşayış evləri sökülüb və Ermənistana daşınıb, tikinti materialları kimi istifadə edilib, insanların halal zəhmətlə uzun illər ərzində araya-ərsəyə gətirdiyi mülkləri talan edilib. Budur ermənilərin və Ermənistanın Qarabağa, Şərqi Zəngəzura olan münasibəti. Bu gün isə Azərbaycan suveren ərazilərinə aid torpaqları, o cümlədən Zəngəzur rayonunu işğaldan azad edib və hazırda quruculuq işlərini davam etdirir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Hüseynov deyib.

Deputat qeyd edib ki, Prezident İlham Əliyev Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən çox önəmli məsələlərə toxundu: "Bildirdi ki, keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tezliklə qayıtması əsas məsələlərdən biridir. Zəngilan birinci rayondur ki, keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir. Ağalı kəndi faktiki olaraq yenidən qurulur, böyük və rahat kənd olacaq. Bəli, Ağalı kəndi belə layihələrdən birincisidir, amma sonuncusu deyil. Rayonda aparılan infrastruktur layihələrinin genişliyindən və böyüklüyündən də görünür ki, Zəngilanın timsalında hər kəs işğaldan azad olunmuş ərazilərin yenidən qurulacağına şübhəsi olmasın. Həm də quruculuq işləri müasir dünya standartlarına uyğun aparılacaq. Bütün dünya Azərbaycanın qurucu dövlət olduğunu görəcək. 30 il ərzində bu əraziləri işğal altında saxlayan Ermənistanın heç bir tikinti işləri aparmadığından da görmək olar ki, işğalçı dövlətin məqsədi yalnız dağıtmaq, azərbaycanlıların var-dövlətini ələ keçirmək, yüz illərlə qurduqlarına sahiblənmək olub".



A.Hüseynov bildirib ki, Qarabağla, Şərqi Zəngəzurla bağlı Azərbaycanın planları başqadır: "Azərbaycan dövləti yaradır, nə mümkünsə edir, bütün güclər səfərbər olunub. Maliyyə vəsaiti səfərbər edilib. Keçən il və bu il bu məqsədlər üçün hər il üzrə 2,2 milyard manat vəsait nəzərdə tutulub, yəni, toplam 4,4 milyard manat. Təxirəsalınmaz işlərin görülməsi üçün əlavə vəsait ayrılacaqdır. Zəngilan rayonunda icra edilən böyük infrastruktur layihələrindən biri - Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturu da yenilənir. Artıq bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcəyi nəzərdə tutulub. İşlərin həcmindən və çeşidindən də görmək olar ki, Zəngilan rayonu beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcək. Sürətlə inşa olunan dörd və altı zolaqdan ibarət olan avtomobil yolu Azərbaycanın qərb hissəsi ilə əvvəlcə Naxçıvanı, sonra qardaş Türkiyəni, daha sonra isə Avropanı birləşdirəcək. Zəngilandan Qubadlıya və Qubadlıdan Laçına bir çox zolaqdan ibarət yol çəkilir.

Horadizdən Ağbəndə gedən dəmir yolunun inşası sürətlə aparılır. Bu dəmir yolu həm vətəndaşlar üçün, həm də beynəlxalq yükgöndərənlər üçün çox əlverişli bir infrastruktur olacaqdır. Cənub-Şərqi Asiya və Orta Asiyadan Avropaya istiqamət götürən yüklərin xeyli hissəsinin Azərbaycandan, xüsusən də Zəngəzur dəhlizindən daşınması bu yolun gələcək perspektivlərindən xəbər verir. Əslində bu dəhlizin bərpa edilməsindən təkcə Azərbaycan yox, o cümlədən İran, Türkiyə, Rusiya və Ermənistan yararlana bilər ki, bu da həm bizim üçün, həm də qonşu dövlətlər üçün əlavə imkanlar yaradacaq. Dövlətimizin azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı ilə bağlı çox böyük planları var. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün bu ərazilərdə yaradılacaq infrastruktur məqsədlərimizin həyata keçməsində önəmli rol oynayacaq. Bilirsiniz ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları öz potensialına görə Azərbaycanın digər ərazilərindən əhəmiyyətli dərəcədə fərqlənir. Yəni burada imkanlar daha genişdir. Bu gün dünyanı qıtlıqla təhdid edən dənli bitki bazarından asılılığı kifayət qədər azaltmaq olar. Bunun üçün İşğaldan azad edilmiş ərazilərdə əkin sahələrini genişləndirmək üçün aqroparkların sayını artırmaq lazımdır".

***Səbinə Hüseynli***





# Erməni "mədəniyyət və səmimiyyət"inin gözəl bir nümunəsi...

**...Apardığım geniş müşahidələrimə əsasən, bircə onu deyə bilərəm ki, bu gün İrəvanda "haqsızlıq" baş alıb gedir. Nə iti tanıyırlar, nə də onun yiyəsini. Bəli, dediklərim həqiqətdir. İnanmırsınızsa, Siz də baxın...görün o gün nə olub?..**

...Deməli, o vaxt, 1982-ci ildə Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arıkanı qətlə yetirməkdə günahlandırılaraq ömürlük həbs olunan Hambik Sasunyan bu gün terrorçu kimi tanınsa da, amma ermənilər onu əsil "milli qəhrəmanları" kimi tanıyırlar. Erməni "qəhrəman" həm də "Erməni soyqırımında ədalət mübarizləri" qrupunun üzvüdür.

O da yadınızda olar ki, onun ömürlük həbsini şərti həbslə əvəzləmək üçün Ameikadakı erməni diasporu nələr eləmədi. Hətta deyilənə görə, Amerikadakı bəzi imkanlı ermənilər öz arvadlarını belə amerikalı səlahiyyətlilərə minnətçi saldırmışdılar.

Təbii ki, "erməni arvadı böyük qüvvədir". (...44 günlük müharibədə Anna Akopyanın erməni arvadlarından təşkil etdiyi "zənən batalyonu"nu yadınıza salın, amma nə təəssüflər ki,"döyüşə girə bilmədilər"...Eşitdiyimə görə, bizim o cavan əsgərlərdın bəziləri bundan bir az "narazı" da qalmışdılar-A.B.)

Nə isə, belə görünür ki, ermənilərin "kişili- arvadlı" birgə fəaliyyətləri nəticəsiz qalmadı, budur, Sasunyan bu gün İrəvandadır.

...Amma ötən gün onun haqqında edilən "hazsızlıq" Nikol, elə onun polisləri üçün də "utanvericidir". Niyə? Çünki bu gün erməni xalqının "qucağında gəzdirilməsinə layiq" olan birini İrəvan polisi "ictimai asayişi pozduğuna görə", tutub həbsə basır. Özü də, onun erməni xalqı qarşısındakı xidmətlərini nəzərə belə almadan.

...Hə indi nə olsun ki, onun türk siyasətçiyə qarşı etdiyi əməli çoxları "xain əməli" kimi xarakterizə edir? Siz hələ bir onu "vicdan məhkumu" elan etmiş Daşnaksütyunun gözü ilə baxın. Unutmayın ki, hələ də Sasunyanın bütün xərclərini bu təşkilat ödəyir.

Nə isə...

Amma deyim ki, İrəvandakı erməni polisinə gətirilən Sasunyanı polis idarəsində tanıyıblar. Bəs, necə olmalıdır? Millət öz "qəhrəmanını" tanımalıdır. Yeri gəlmişkən, bu yerdə Sasunyana qarşı edilmiş "haqsızlıq" məni də bir kaç söz deməyə vadar etdi...

Deyim ki, əslində, bu gün Ermənistanda bütün yaşananlara baxmayaraq, Nikol Paşinyan da elə özündən əvvəlki erməni rəhbərlərinin "bir az fərqli varislərindən" biridir. Gərək ki, "...biz ermənilərdə riyakarlıq ana bətnində olarkən yaranır" etirafı erməni şairi Çarensinə məxsusdur.

Məhz bu mənada, bu gün Nikol Paşinyanın erməni kimi, hansı hisslər keçirdiyini anlamaq elə də çətin deyil. Məsələ bundadır ki, hazırda Nikol umzaladığı rəsmi sənədlərin girdabındadır. Yəni həmən sənədlərin "əsirinə çevrilib". Mənə elə gəlir ki, əgər bu gün üçtərəfli imzalanmış sənəd olmasaydı, bu halda Nikol da sələfi Serjik kimi sonradan dediklərini danarlardan biri olacaqdı.

...Gərək ki, yadınızda olar: 2016-cı ilin aprelində cəmi 5 gün çəkən döyüşlərdə məğlub duruma düşüb qaçan ermənilərin o vaxtkı rəhbəri Serjik Sarkisyan "quyruğu qapı arasında qalan tülkü" kimi, ilan dili çıxardı və elə tülkü cildinə də girərək Azərbaycanın bütün tələbləriylə razılaşacağına söz verdi.

Amma, deyim ki, bütün bunlar rəsmi sənəddə yer almadığı üçün sonradan Serjik Sarkisyan tərəfindən danıldı. Yəni Sarkisyan, dünyada analoqu olmayan, əsil erməni simasızlığını bir daha nümayiş etdirdi...

...Deyəsən, əsil mətləbdən bir az uzaqlaşdıq axı... Hə, yadıma düşdü, gərək ki, ermənilərin "özlərinə layiq qəhrəmanı" Hambik Sasunyandan danışırdıq...

Deməli, İrəvanda tanımadığı erməni polislər tərəfindən həbs edilən Hambiki polislər polis maşınına dürtərkən, polislərdən biri onun başına iki qapaz da vurub: "...amma mən heç nə demədim, bircə onu deyə bilərəm ki, polisin münasibətindən çox məyus oldum".

Gəlin, elə biz də erməni Hambikin bu səmimi etirafını, bütün ermənilərin səmimiliyinin kiçik bir nümunəsi kimi qəbul edəyin. (...hə,bir də...yuxarıda qurduğum cümlədə polis sözünün çox işlənməsindən belə görünür ki, onların, yəni polislərin sayı çox olub. Yoxsa vaxtilə türk səfirinə xaincəsinə güllə atıb qaçmağa çalışan Hambiki indi hansısa bir erməni polisi tutub maşına basa bilməsi Sizlərə asan görünməsiun-A.B.)

"...Nikol, ayıb olsun sənə, sən min dəfə utanmalısan. Tüpürürəm sənə..."

Deyim ki, bu isə erməni mədəniyyətinin gözəl bir nümunəsi kimi təqdir olunmalıdır...

***Ağasəf Babayev***

# Uçan sarımsaqlar

## *FELYETON*

**Bu XXI əsr nə əsr imiş belə? Maşallah...Texnikanın, texnologiyanın inkişafı zirvədə. İnsanların inkişafı zirvədə. Texnologiya və insanın birgə əməlindən inkişaf edən digər sahələr də zirvədə. Göz dəyməsin...**

Bir zamanlar bu günləri heç təsəvvürümüzə belə gətirə bilməzdik. Fədakar ziyalılarımız elm, maarif toxumu səpib illərlə cücərməsini görmədən dünyalarını dəyişəndə nə bilərdik ki, əsrlər sonra bu toxumlar yerdən qanad alıb göydə uçacaq. Özünü qəzet çıxarmaq yolunda fəda edən Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və onlarla onlar kimi ziyalı bir zamanlar bir nömrə qəzet çıxarmaq üçün bir ay əziyyət çəkəndə nə bilərdik ki, zaman gələcək, bir saat içində yüzlərlə qəzet işıq üzünə doğru qanad çalacaq. Məktubumuzu Novruzəliyə verib poçt qutusuna salmağa göndərəndə, yazıq kişi də oturub qutunun yanında gözləyəndə və başına iş gələndə nə bilərdik ki, bir necə əsr sonra məktubumuzu bir düyməni basmaqla uçuracağıq. Rəhmətlik Molla Nəsrəddin uzunqulağı minib məmləkətin bu başından o başına günlərlə gecəli-gündüzlü yol gedəndə nə bilərdik ki, vaxt gələcək, o yolları bir saata, 30-45 dəqiqəyə uçacağıq. Fatmanisə oğluna göndərdiyi sovqatı onun alıb-almamasından xəbər tutmaq üçün bir aydan sonra məktub alanda nə bilərdik ki, illər sonra sürətli karqolar sovqatımızı ünvan başına ildırım sürətilə uçuracaq. Bütün bunlar çox gözəl. Lakin məsələn, toy, bayram, yaslarımızda, davranışımızda, oturub-duruşumuzda, danışığımızda adət-ənənələrimiz vardı ki, onlara bircə-bircə riayət etdiyimiz vaxtlar nə bilərdik ki, illər bizi quş qanadında onlardan əsər-əlamət qalmayan bu illərə uçuracaq. Bu illərdə isə arzular, istəklər bizi haralardan haralara uçuracaq...



Bəli, təsəvvürümüzə gətirə bilmədiyimiz o qədər hadisələr var ki... Məsələn, sərlövhəmlə yazdıqlarım arasında əlaqənin olmadığını eşitməmiş ta mətləbə gəlməyin vaxtı çatdığını anladığım kimi. Vallah qınamayın, mən inkişafdan danışıram. Yazdıqlarımda da bir qüsur yoxdur məncə. Texnologiyanın, insanların, onların birgə inkişafının nəticələrini sadalamaqda nə qəbahət var ki? Qəbahət ondadır ki, bəli, indi inkişafı elə bir həddə uçurmuşuq ki, özümüz də bilmirik o qanadlarda uçub gedib hara düşmüşük. Bir də ki, niyə bilmirik axı, yaxşı bilirik. Sadəcə başımız qazanca elə qarışıb ki, hələ fərqində deyilik. Yoxsa uça-uça düz uçrumun kənarındaca ilişib hələlik birtəhər dayanmışıq. Bu inkişafla çox keçməz o uçurumdan aşağı yuvarlanıb həyata əlvida deyərik.

Hə, mətləb, deyirsiniz, gəlim. Mətləb budur ki, xəbəriniz olsun, sarımsaqlar uçur. Bunu mənim kimi müşahidə edənlərin hamısı da heyrətdən uçur. Göyə uçmur, xeyr, o uçuruma doğru uçur. Sonumuzun çatdığı o uçuruma doğru. Biz əlimizə iynə alıb bir qramlıq nə bilim nəyləsə cücənu 2-3 illik toyuq həddinə çatdıranda, yumurta, kartof, süd tozunu düzəldib suya salmaqla onları əldə edəndə, tərəvəzin, ərzağın genini dəyişib məhsuldarlığı artırarkən inkişafımıza sevinəndə o uçurumu heç düşünmürdük. Hələlik ki, bunlar arasında uçanı yoxdur, uçan bir sarımsaqdır. Onun da uçma səbəbi gücünü enməyimizə, buna "qüruru" tab gətirmədiyinə görə belə tez baş verib. Yoxsa sarımsağa yaxın düşmək olardı? Qoxusu bir yandan, dadı bir yandan, acısı bir yandan adama zülm edərdi. İndi gör bizim inkişaf hansı zirvədədir ki, sarımsaq qarşımıza ağ bayraqla çıxıb, məğlub olduğunu etiraf edir.

Hadisənin baş vermə ardıcıllığını gözlərinizlə görmək istəyirsinizsə, bazar, marketlərdən sarımsaq alın. Lakin lazım olanda arxayın olmayın ki, evdə sarımsaq var. Çünki bir neçə gündən sonra əlinizi atıb götürmək istəyəndə onun uçduğunu, yerində sadəcə qabıqlarının qaldığını görəcəksiniz. Ona görə də məsləhət görürəm ki, sarımsağı çox az alasınız, yoxsa, sarımsaqlar kimi, pulunuz da uçub ərşə qalxar. Ağlınız heç də əvvəlki sarımsaqlara getməsin ki, analarımız bu il turşu qoyarkən istifadə etdiyi sarımsaqların artıq qalanından gələn il turşu qoyanda istifadə edirdi. Bunu unudun. Çünki sarımsaqların başına XXI əsrin inkişaf etmiş insanı nə oyun açıb, bilmirəm, onlar bizdən üz döndərib evlərimizdən uçurlar...

***Mətanət Məmmədova***

# "Müxalifət sifarişlə aksiyalar keçirməyə çalışır"

**"Azərbaycan dövlətinin inkişafına, stabilliyinə və beynəlxalq aləmdə artan nüfuzuna və bu günə qədər əldə etdiyi uğurlara qısqanclıq hissi ilə yanaşan xarici qüvvələr var. Müxalifət liderlərinin özlərinə sərf edəndə və xarici qüvvələrin tapşırığı olanda onlar hansısa bir məsələ ilə bağlı bir araya gəlirlər". "Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, bu dəfə də müxalifətə növbəti bir tapşırıq gəlib ki, onlar aksiyaların keçirilməsi ilə bağlı bu cür anormal çağırışlar edirlər: "Onlara sual vermək lazımdır ki, bu illər ərzində siz müxalifət görün neçə dəfə bu cür mənasız və heç kəsə lazım olmayan aksiyalar, mitinqlər keçirmisiniz, amma hər dəfə də uğursuzluğa düçar olmusunuz. Keçirdiyiniz aksiyalarda sizin yaxınlarınızdan və tanışlarınızdan başqa heç kəs olmayıb. Yəni uğursuzluğa düçar olmusunuz və bundan sonra da olacaqsınız. Bir sözlə, sözügedən müxalifət qüvvələrinin məkrli planları bu günə qədər baş tutmayıb və bundan sonra da baş tutmayacaq. Çünki onların Azərbaycan xalqı tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Demək olar ki, müxalifətin olub-olmaması cəmiyyət üçün maraqlı deyil. Belə olan halda da, yaxşı olardı ki, müxalifət sakitcə öz yerində otursun".

***Gülyana***

# Heydər Əliyev və təhsilimizə konseptual yanaşmalar



Bütün əmək fəaliyyətim təhsil sistemi ilə bağlı olub. Hətta 10 ilə yaxın başqa sahədə işləmiş olsam da, yenə də bilavasitə əməkdaşların peşəkar inkişafı ilə məşğul olmuşam. Son 40 il ərzində bu və ya digər formada təhsil siyasətinə aid layihələrin hazırlanmasında və onların həyata keçirilməsində yaxından iştirak etmişəm. Fəxr edirəm ki, ölkə təhsilinin yeniləşməsinə və onun sistemli inkişafına möhkəm zəmin yaratmış və ölkə Prezidenti tərəfindən 2013-cü ildə təsdiq olunmuş "Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın layihəsində də mühüm töhvələr verə bilmişəm.

Məqalənin mövzusunu özüm üçün əvvəlcədən müəyyənləşdirmişdim. Onun formatı haqqında çox düşündüm və üstünlüyü bir il əvvəl nəşr olunmuş "Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları" kitabında Heydər Əliyevlə bağlı əks etdirdiyim aşağıdakı fikirlərin bölüşməsinə verdim.

***Heydər Əliyev və təhsil***
***("Müəllim, Müəllim ol!" dərsindən)***

Görkəmli dövlət xadimi, böyük şəxsiyyət Heydər Əliyevlə ünsiyyətim həmişəlik yaddaşıma həkk olunmuşdur. O, 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edib, 1982-1986-cı illərdə sovet hökumətində ən yüksək vəzifələrdən birini tutub və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olub. O zamanlar ölkənin bir sıra mühüm sosial-iqtisadi sahələri onun kurasiyasında idi, o cümlədən Heydər Əliyev SSRİ-də aparılan təhsil islahatlarına da rəhbərlik edirdi. Mən həmin islahatların həyata keçirilməsi üzrə Ümumittifaq Koordinasiya Komissiyasının üzvü olmuş və əksər tematik diskussiyalarda, habelə sovet təhsilində köklü dəyişikliklərin aparılmasına dair təkliflərin hazırlanmasında yaxından iştirak etmişəm. Heydər Əliyev Azərbaycan respublikası Prezidenti vəzifəsində də Azərbaycanda sosial, iqtisadi, mədəni, infrastruktur və digər istiqamətlərdə böyük islahatlar apardı, mili təhsil sistemimizin inkişafı ilə bağlı bir sıra mühüm, konseptual mahiyyətə malik təşəbbüslərə təkan verdi.



***Asif Cahangirov,***
***YAP Veteranlar Şurasının üzvü, Respublikanın əməkdar müəllimi***

***Milli-mənəvi dəyərlər***
***("Birləşdirici bucaq - dəyərlər" dərsindən)***

Heydər Əliyev: "Biz öz mili-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

***Cəsarətli addım***
***("Məktəbəqədər təhsilə yaşıl işıq!" dərsindən)***

Moskva şəhər Təhsil Departamentinin dəvəti ilə 14-17 oktyabırda (2008-c il) "Ekrən yaşlı uşaqların təhsili" mövzusunda beynəlxalq forumda iştirak etdim. Mən "Ekrən yaşlı uşaqların intellektual inkişafı" bölməsinin iştiraksısı oldum, habelə "Müasir uşaq - o kimdir?" mövzusunda keçirilən "dəyirmi masa" müzakirələrində çıxış etdim.

Yeri gəlmişkən, "dəyirmi masa"ya akademik Vitalik Rubstov rəhbərlik edirdi. O, Moskva Dövlət Psixoloji-Pedaqoji Universitetinin rektoru, eyni zamanda Rusiya Təhsil Akademiyasının L.Q.Şukina adına Psixologiya İnstitutunun direktorudur. Qeyri-rəsmi söhbətimiz zamanı hörmətli akademik həyatında və elmi fəaliyyətində son dərəcə mühüm və mərhum Heydər Əliyevin adi ilə bağlı olan hadisədən bəhs etdi.

Qeyd edim ki, Vitaliy Rubstov dünya miqyaslı görkəmli alim-psixoloq, inkişafetdirici təlim nəzəriyyəsi və təcrübəsinin əsasını qoyanlardan biri olan Vasiliy Damıdovun yetirməsidir. Davıdov həm də sovet pedaqogikasının ideoloji opponenti kimi də tanınırdı. Ötən əsrin 70-ci illərinin sonundan dəfələrlə, özü də, kəskin şəkildə mövcud rəsmi pedaqoji doğmaları tənqid edir, sovet təhsil sistemində dərin dəyişikliklər aparılmasının zəruriliyindən açıqcasına danışırdı. V.Davıdov bu cür "üsyankar" çıxışları və məqalələrinə görə 1983-cü ildə Sov. İKP sıralarından xaric edilir və institut direktoru vəzifəsindən uzaqlaşdırılır.

Davıdov işdən çıxarıldıqdan sonra, əlbəttə ki, Rubstovun o vaxt rəhbərlik etdiyi və novatorluğu ilə fərqləndiyi inkişafetdirici təlim laboratoriyasının ləğvi məsələsi də gündəmə gəlmişdi. Vitalliy Vladimiroviç vəziyyətdən çıxış yolu axtarmağa çalışsa da, atılan addımlar heç bir nəticə verməmişdi və mahiyyət etibarilə verə də bilməzdi. Nəhayət dostlarının israrlı təkidi ilə Rubstov SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə müraciət məktubu yazmışdı. Sovetlər gerçəkliyində şeç kəsin tanımadığı hansısa psixologiya elmləri namizədinin məktubuna SSRİ-nin əsas rəhbərlərindən biri tərəfindən diqqət yetiriləcəyinə, əlbəttə ki, ümid yox idi.

Nə qədər təəccüblü olsa da, qısa zamanda gənc alim Heydər Əliyevdən birmənalı dəstək almış və bu dəstək sayəsində laboratoriyanın bağlanması təhlükəsi aradan götürülmüşdü. Rubstov və onun həmkarları indinin özündə də həmin günləri, partiya sıralarından xaric edilmiş Davıdovun adı ilə assosiasiya olunan laboratoriyanın ləğv edilməsinin qarşısını almaqda Sov.İKP MK Siyasi Bürosu üzvünün atdığı çox cəsarətli addımı böyük iftixarla xatırlayırlar.

***Təhsilə konseptual yanaşma***
***("Sovet avtoritarizmi və müasir menecment" dərsindən)***

Obyektivlik naminə təsdiq etməliyik ki, təhsilə konseptual yanaşmanı hələ 1999-cu ilin avqustunda Prezident Heydər Əliyev belə səsləndirmişdir: "Təhsil xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir".

***İnsan və vətəndaş mövqeyi***
***("Təhsil və həyat" bölməsindən)***

Heydər Əliyevin "Bir ağacı kəsən sanki mənim bir qolumu kəsir" emosional ifadəsi yadına düşdü. Mən həmin sözlərin səsləndiyi yığıncağın iştirakçısı olmuşam.

***Strateji baxış***
***("Başlanğıcın başlanğıcı" dərsindən)***

SSRİ dağılanadək və ondan sonrakı illərdə də əzmkarlıqla ümumi təhsil konsepsiyasının hazırlanması, məktəb proqramları və dərsliklərin yenidən işlənməsinin zərurəti haqqında dəfələrlə fikir söyləmişdim. Mətbuatda, radio və televiziya çıxışlarımda təlim rus dilində olan siniflərdə şagirdlərimizin tarix fənnini Rusiya dərsliklərindən öyrənməsinin qəbulolunmazlığını xüsusi vurğulayırdım. Heydər Əliyevin 2000-ci ildə Nərimanov rayonundakı 82 nömrəli məktəbə səfəri zamanı yeni dərsliklər qoyulmuş rəflərin birində Rusiyanın tarix dərsliyini gördükdə necə qəzəbləndiyini təsəvvür etmək çətin deyil. Bir il ərzində vəziyyət düzəldi.

***İcbari Təhsil***
***("Orta təhsil: doqquz illik?" dərsindən)***

Müstəqil Azərbaycanın ilk Konstitusiyası üzərində işlər aparılarkən ən mübahisəli məsələlərdən biri məhz icbari ümumi təhsilin müddəti ilə bağlı idi. Əfsuslar olsun, lakin bir çox müəllim, alim, ictimai xadim 9 illik icbari təhsilə üstünlük verirdi. 11 illik icbari ümumi təhsilin tərəfdarları da az deyildi. Tam məsuliyyətlə deyirəm. 1995-ci ilin Konstitusiyasında məhz 11 illik təhsilin icbariliyi barədə Qanun müddəasının əks olunması şəxsən Prezident Heydər Əliyevin qətiyyətli mövqeyi hesabına baş vermişdir.

ANALİTİK + AKTUAL

# Paşinyanın çıxış yolu birdir - üzərinə düşəni etmək, revanşistləri kənarlaşdırmaq!

İrəvanda sabiqlərin, keçmiş iqtidar təmsilçilərinin və eləcə də Nikol Paşinyan hakimiyyətindən istefa verənlərin bir araya gələrək formalaşdırdıqları müxalifətin fəaliyyətində son günlər daha da aktivlik müşahidə eidlməkdədir. Əbəs deyil ki, Qarabağ ermənilərinin klanları - Serj Sarqsyanın ətrafı hesab edilən və parlamentdə olan "Şərəfim var" fraksiyası, həmçinin İşxan Saqatelyanın əlində olan daşnaklar, Robert Koçaryan tərəfdarları, "5165" hərəkatı, habelə mövcud iqtidarın milli təhlükəsizlik xidmətinin sabiq rəhbəri, "Vətən" partiyasının lideri Artur Vanestsyan aprelin 17-dən etiraz aksiyaları keçirir, yolları bağlayır, açlıqlar elan edir, sosial şəbəkələrdə Paşinyan iqtidarının istefasını, eyni zamanda baş nazirin həbs olunaraq məhkəməyə cəlb edilməsini tələb edirlər. Qeyd edək ki, bu qruplar həm də revanşizm "ideyası" ilə siyasi fəaliyyət göstərir, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarla çıxışlar edir, müharibə tərəfdarları olduqlarını açıq şəkildə bəyan edirlər. Düzdür, onların ətraflarında elə də çox insanlar, tərəfdarlar olmasa da, fakt budur ki, müxalifət fasiləsiz aksiyalar keçirmək qərarında olduğunu bildirib və bununla erməni cəmiyyətini daha çıxılmaz dalana doğru sıxışdırıb öz maraqlarını təmin etməyə çalışırlar. Görünür, revanşistlər 44 günlük müharibədə diz çökmələri ilə nəticələnmiş qurşaqaltı zərbələri yavaş-yavaş unutmağa başlayıblar və belə davam etsə yenidən həmin zərbələri dadmalı olacaqlar...

**Görünür, revanşistlər 44 günlük müharibədə diz çökmələri ilə nəticələnmiş qurşaqaltı zərbələri yavaş-yavaş unutmağa başlayıblar və belə davam etsə yenidən həmin zərbələri dadmalı olacaqlar...**



### Artıq polis və s. hüquq-mühafizə orqanları bir çox aksiya iştirakçılarını həbs edib və belə görünür ki, ölkədə vəziyyət get-gedə mürəkkəbləşməyə doğru inkişaf edir

Beləliklə, Ermənistanda anti-Paşinyan küçə yürüşləri davam edir. Daşnakların lideri, parlamentin vitse-spikeri İşxan Saqatelyan bəyan edir ki, küçə mübarizəsi davam edəcək. SİA xəbər verir ki, bu barədə ARKA erməni internet nəşri yazır. "Küçələrə çıxırıq ki, xain və dağıdıcı hakimiyyəti kənarlaşdıraq. Bu, hakimiyyət uğrunda mübarizə deyil, bu dövlətçilik və ermənicilik mübarizəsidir", deyə daşnakların lideri özünün video-müraciətində bəyan edib. "Bu, bir partiyanın mübarizəsi deyil, ümummilli mübarizədir ki, daha sonra ümummilli müqavimətə keçid alsın. Bu, erməni dövlətçiliyinin qorunması və mühafizəsidir və kimlər ki, bizim kimi düşünürsə onlar buradadır və onlar bizimlə olduğu kimi bizə də onlarlayıq - bizim həmfikirlər, mübarizə üzrə kolleqalarımız", Saqatelyan deyib.

"Vətən" partiyasının lideri Vanetsyan isə deyib ki, belə bir mübarizədə iştirak edənlər öz vətənlərində yaxşı yaşamalıdırlar. "Ermənistanın mühüm tarixi yazılır, bu tarixi hərəkatdır", deyə o bildirib və bütün ölkə boyunca tabe olmama aksiyaları göstərməyə çağırış edib. Onu da qeyd edək ki, revanşist müxalifət Ermənistanın müxtəlif vilayətlərindən insanları cəlb etmək üçün nəqliyyat da təşkil edirlər. Onlar may ayının 1-də İrəvanın mərkəzində böyük mitinq keçirmək qərarını veriblər. Artıq polis və s. hüquq-mühafizə orqanları bir çox aksiya iştirakçılarını həbs edib və belə görünür ki, ölkədə vəziyyət get-gedə mürəkkəbləşməyə doğru inkişaf edir.

### Nikol Paşinyan: "Ermənistanın Şərqi ilə Qərbini bağlayan avtomobil və dəmir yollarının daha tez açılmasına hazır olduğumuzu bir daha təsdiq edə bilərəm"

Küçələrdə etiraz aksiyalarının keçirildiyi bir vaxta hökkumət iclasları keçirən Nikol Paşinyan özünün Rusiyaya səfəri barədə məlumatlar verib və Vladimir Putinlə hansı ətrafda söhbətlərin aparıldığını açıqlayıb. Onun sözlərinə görə, Moskva Azərbaycanla Ermənistan arasında kommunikasiyaların açılmasını dəstəkləyir. "Mühüm prinsiplər üzərində razılaşmalar əldə olundu, yanaşmalarda Ermənistanla Rusiyanın vahid mövqeləri qeydə alındı", deyə erməni baş naziri iclasda bildirib. SİTAT: "Mövcud məsələdə bizim mövqelərimizin vahidliyini bütün beynəlxalq partnyorlarla birgə qeydə alındığını deyə bilərik, mən Ermənistanın Şərqi ilə Qərbini bağlayan avtomobil və dəmir yollarının daha tez açılmasına hazır olduğumuzu bir daha təsdiq edə bilərəm".

### Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz hissəsinin 45 kilometrlik məsafəsinin tikinti dəyəri 200 milyon ABŞ dollarıdır - Ermənistanın boynundadır!

Paşinyan üçtərəfli qrupun Rusiyanın, Ermənistanın və Azərbaycanın patronajlığı altında qısa zamanda müvafiq sənədlərin hazırlanmasına və prosesin başlanmasına ümid etdiyini bildirib.

Qeyd edək ki, Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının bərpası üçün Ermənstan hökuməti dəmir yolunun Arazdəyən-Culfa-Ordubad-Mehri-Horadiz hissəsinin 45 kilometrini bərpa etmək öhdəliyini götürüb. Görüləcək işlərin dəyəri 200 milyon ABŞ dolları həcmindədir. Ermənistan məhz bu dəmir yolu vasitəsi ilə İrana, Rusiyaya çıxmağa, Azərbaycan isə Naxçıvanla dəmir yolu əlaqəsini qurmağa nail olacaq. Lakin müşahidə etdiyimiz kimi, Ermənistan rəhbərliyi dildə bir, əməldə fərqli münasibət nümayiş etdirir və bu ikili yanaşma əlbəttə ki, özünü "loyal" apardığını nümayiş etdirməyə cəhd edən Paşinyan hakimiyyəti barədə yeni suallar doğurmağa başlayır.

### Dünya və Avropa banklarından pessimist proqnozlar

Bu arada onu da qeyd edək ki, Dünya Bankı özünün yaz proqnozunda regionun inkişafı qiymətləndirməsində Ermənistan iqtisadiyyatının yüsksəkişini 1,2 % azaldıb. Avropa Mərkəzi Bankı da bu barədə qiymətləndirmə aparıb. Avropanın Regional İnkişaf Bankı isə erməni iqtisadiyyatının cari il üzrə 5,3 % düşəcəyini poqnozlaşdırıb. Belə olan vəziyyətdə rəsmi İrəvanın üzərinə iri məsuliyyətlər dayanır və xüsusilə nəqliyyat kommunikasiyalarının açılması istiqamətində zəif iqtisadiyyatı ilə qalmış Ermənistanın xarici borca daxil olmaqdan başqa çarəsi də qalmır. Ancaq bu o demək deyil ki, Ermənistan üzərinə düşən vəzifələri yerinə yetirməyə bilər, heç də belə deyil...

### Əks halda həm onun özü, həm də bütövlükdə Ermənistan düşdüyü bataqlıqdan çıxmağa müyəssər olmayacaq

Əgər bu gün ölkədəki revanşist müxalifət Paşinyana təzyiqlər göstərirsə onun həmin təzyiqlərdə görə hər hansı bəhanələrlə çıxış etməsi də nəticəsiz qalacaq. Bu gün yalnız Azərbaycan deyil, eləcə də Rusiya Ermənistanın üzərinə tələblər qoyub və bu tələblər yerinə yetirilməzsə demək ki, bunu güc yolu ilə həyata keçirməkdən başqa çarə də qalmır. Bu baxımdan, ölkədəki sabiq iqtidar nümayəndələrinin, daşnak və s. qüvvələrin küçə aksiyalarına başlamaları heç vaxt bəhanə hesab edilə bilməz. Əslində, Nikol Paşinyan qəti addımlar armaqla onların siyasi səhnədən uzaqlaşdırılması üçün hətta ən sərt güc tətbiqlərini də işə sala bilər. Əks halda həm onun özü, həm də bütövlükdə Ermənistan düşdüyü bataqlıqdan çıxmağa müyəssər olmayacaq. Xüsusilə, bundan əziyyət çəkən də məhz sadə erməni xalqı olacaq.

*Rövşən RƏSULOV*

---



Elçin Bayramlı

# Uşaq intiharlarında GÜNAH KİMDƏDİR?

**İntiharların kəskin artması cəmiyyətdə dəyərlərin dəyişməsinin əyani təzühürüdür. Uşaqları intihar edən valideynlərdən digər uşaqları alınmalı, özləri isə həbs olunmalıdır**

***Son 20 ildə Azərbaycanda intiharların sayının 5 dəfə artmasının səbəblərini analiz edərkən, ortaya maraqlı məqamlar çıxır. Bunu bəziləri sosial problemlərlə, bəziləri isə psixoloji problemlərlə bağlayırlar. İntiharların bu qədər artmasının hansı sosial səbəbləri var və bu artımda "ədalətsiz cəmiyyət"in yaratdığı sosial bərabərsizliyin payı varmı, yoxsa psixoloji gərginlik buna gətirib çıxarır? Bunların hansının payı nə qədərdir? Bu suala cavab vermək üçün gəlin vəziyyətə baxaq.***

Xüsusən də, uşaq, yeniyetmə və gənclər arasında intihar hallarının artması ürəkağrıdandır. Bu da onu göstərir ki, intihar cəmiyyətimizin çox ciddi sosial probleminə çevrilir. Və bu intiharların kökündə əsasən maddi problemlər dayanmır. Faktlar göstərir ki, az yaşda intihar edənlərin çoxu buna mənəvi-psixoloji vəziyyətlərindən dolayı əl atırlar. Baş tutmamış sevgi, narkotik maddələrdən istifadə, mənəvi deqradasiya, qlobal psixotron terrora məruz qalmaq və ruhi boşluğa düşmək (qayğı, diqqət, sevgi görməmək), təhqir olunmaq, zorlanmaq əsas səbəblərdəndir. Burada sosial, daha doğrusu maddi problemlərdən doğan səbəblərin payı son dərəcə azdır.

Psxotron təzyiqdə, mənəvi dəyərləri məhv etməkdə və qeyri-sağlam həyat tərzini təbliğ etməkdə medianın və internet resurslarının da rolu böyükdür. Bəzi özəl televiziyalar və orada çıxış edən bir çox şəxslər var gücləri ilə insanların- xüsusən yeniyetmə və gənclərin əxlaqını pozmağa, ailə institunu dağıtmağa, uşaq tərbiyəsini lazımsız bir şeyə çevirməyə açıq şəkildə səsləyir. Seriallar, şou verilişlər mənəvi dəyərləri məhv edir.

Valideynlərin çoxu uşaqlarının tərbiyəsini buraxıb televiziyanın, internetin öhdəsinə. Hər uşağın əlində bir yekə smartfon alıb verib canlarını qurtarıblar. Onların yerinə uşaqlarını kimlər tərbiyə, edir, kimlər yönəldir heç veclərinə də deyil.

Uşaqlar cəmi 30 il əvvəlki ənənəvi məkanlarından- yaradıcılıq mərkəzlərindən, istirahət düşərgələrindən, idman salonlarından... ayrılaraq küçələrə tərk edilib. Ən yaxşı halda dəhşətli oyunlar oynadıqları, pornoya, zorlamaya, qanlı döyüş səhnələrinə baxdıqları "virtual dünyaya" buraxılıb.

Konkret olaraq, intiharların kəskin artması cəmiyyətdə mənəvi-pxisoloji əxlaqı dəyərlərin dəyişməsinin əyani təzühürüdür. Burada sosial problemlərin təsirini əsas götürənlərlə razılaşmıram, bu faktor bəlkə bir neçə faiz rol oynaya bilər. Müqayisə üçün baxın, intiharların səviyyəsi məhz inkişaf etmiş, əhalisinin maddi təminatı yaxşı olan ölkələrdə daha yüksəkdir. Və ya digər müqayisəyə baxaq- tarixin sosial-maddi cəhətdən ən ağır dövlərində intiharlar çox az olub, amma indi dəfələrlə çoxdur. Misal üçün, bəşər tarixinin 2-ci dünya müharibəsi illərindən ağır dövrü olmayb, onda intiharlar çox cüzi idi. Son 30 ilədək isə, uşaq və yeniyetmə intiharına isə demək olar ki rast gəlinmirdi.

Uşaqlarına sahib çıxmayan onların tərbiyəsi ilə məşğul olmayan, onlara vaxt diqqət və ayırmayan, qayğı göstərməyən fasiləsiz olaraq nəzarət etməyən valideynlərin övladları böyük risk altındadır. Uşaqlara tərbiyə verməyi arxa plana atıb, onları tam nəzarətsiz buraxıblar. Siz heç əlində kitab qəzet, kitab oxuyan və ya bir-biri ilə şahmat oynayan uşaq, yeniyetmə və gəncə rast gəlmisinizmi? Xeyr təbii ki. Amma əlində smartfon pozğun videolara baxan, qorxunc oyunlar oynayan, vaxtını bir- birinə şit və tərbiyəsiz videolar göndərməklə keçirənləri kütləvi görürük.

Azyaşlı uşaqların əlinə bahalı smartfonlar alıb verib yaxalarını çəkiblər kənara. İnternetdə ağla gələn və gəlməyən hər cür təhlükəli materiallar var- hansı ki, psixikaya çox ağır zərbə vurur, dəyərlər sistemini dəyişdirir, əxlaqsızlığı, narsizmi, eqoizmi, həyatda maddi həzz və əyləncədən üstün dəyər olmadığını təbliğ edir.

Elm sübut edib ki, televiziya insan psixikasına hər şeydən güclü təsir edir. Bu vasitə ilə onu istədiyi istiqamətə yönəldə bilirlər. Subliminal mesajlarla, 25-ci kadrlarla dolu olan videomateriallar, xüsusi frekansda və beyin xarab edən tonlarda mahnılar şüuraltına işləyir və yalnız pis məqsədlərə xidmət edir.

Mən hələ görməmişəm ki, özəl tv-lərdə alimlər danışa, elm, təhsil məsələləri müzakirə edilə, intellektual yarışlar təşkil edilə, müasir texnologiyalar öyrədilə, sağlam həyat tərzini təbliğ edilə. Yalnız dövlət kanallarında və ictimai televiziyada bu var. Yəni, ətrafdan çox güclü psixotron təzyiq, daha doğrusu terror var. Uşaqlar qorxunc dünyanın caynağına buraxmaq olmaz. Onlar bu psixotron terrorun öhdəsindən gələ bilməz. Ona görə də istisnasız olaraq bütün bu kimi hallarda valideyn günahkardır. Hələ də çox gec deyil, uşaqlarınıza sahib çıxın. Onların fiziki və mənəvi sağlamlığını təmin etmək sizin vəzifəniz, borcunuzdur. Bunu edə bilmirsinizsə, verin uşaqları internatlara. Bu, onlar üçün daha yaxşı olar. Bu gün faktiki olaraq bu dilemma qarşısındasınız- ikisindən birini seçin.

# “Ermənistan bu siyasətini davam etdirsə, Bakı güc tətbiq edəcək”

## Politoloq Fərhad Məmmədov: "Paşinyan dövlət çevrilişinə ilham verə və nizamlanma prosesini ləngidə bilər"



Aprelin əvvəlində Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa Şurasının sədri Şarl Mişelin iştirakı ilə Brüsseldə keçirilən üçtərəfli görüşdə sülh sazişi üzrə danışıqlara hazırlığa başlamaq barədə razılıq əldə olunmasına baxmayaraq, eləcə də 2022-ci ilin aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının yaradılmasına qədər Yerevan sülh prosesini torpeda etməkdə davam edir. Belə ki, Ermənistan Silahlı Qüvvələri son günlər Kəlbəcər istiqamətində Azərbaycan ordusunun mövqelərini atəşə tutmaqda fəallaşıb. Bundan başqa, erməni quldur dəstələrinin qalıqları Rusiya sülhməramlı kontingenti yaxınlığında yenidən mühəndislik işləri aparmağa başlayıblar ki, bu da onların silahlı təxribatlara hazırlaşdığını göstərir. Maraqlıdır ki, bu, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyevlə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında Brüsseldə keçirilən görüş fonunda baş verib.

Bu baxımdan kifayət qədər məntiqli suallar ortaya çıxır ki, bunlardan da başlıcası budur: nə üçün Ermənistan bir tərəfdən öz nümayəndələrini Azərbaycan nümayəndəsi ilə görüşə həvalə edir, digər tərəfdən isə, əslində, sülh müqaviləsi prosesini və sərhədlərin delimitasiyasını dalana dirəyib? Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov və politoloq Fərhad Məmmədov "Caliber" analitik mərkəzinbə şərh ediblər. Şərhləri oxucularımıza təqim edirik.

T.Zülfüqarovun sözlərinə görə, Ermənistanda başa düşülən proseslər gedir - Qarabağdakı məğlubiyyətdən sonra İrəvan sülh arzusunu yamsılamaq məcburiyyətində qalıb. "Bu, Ermənistanın beynəlxalq aləmdə öz imicini yaxşılaşdırmaq və onların hesab etdiyi kimi, Azərbaycandan təhlükəsizliyini təmin etmək üçün lazımdır, çünki o, ərazi bütövlüyünün bərpası prosesini məntiqi sonluğa çatdırmaq niyyətindədir. Eyni zamanda, Ermənistan tərəfi açıq şəkildə bəyan edir ki, yeni şəraitdə, necə deyərlər, "Artsax" siyasətini davam etdirmək niyyətindədir və buna görə də onlar ziddiyyətli bəyanatlar verirlər və onların əməlləri də çox vaxt ziddiyyətli olur. Bir tərəfdən Ermənistan Azərbaycan ərazilərini ilhaq etmək siyasətini davam etdirir, digər tərəfdən də Azərbaycanın təsiri altında beynəlxalq qanunlara əməl etməyə məcburdur. Azərbaycan beynəlxalq standartlara tam cavab verən nizamlanma prinsiplərini irəli sürəndə Ermənistan tərəfi bunları əsas kimi qəbul etdiyini bəyan edir, lakin sonradan nizamlanma prosesi "AMMA..." vəziyyətinə düşür. Və bu "AMMA" son nəticədə nizamlanma prinsiplərinin mənasını təhrif edən bir şeyə çevrilir. Yəni ermənilər bu və ya digər şəkildə Azərbaycanın daxili işlərinə qarışmaqda davam edirlər. Məsələn, Ermənistan tərəfi deyir ki, Qarabağdakı erməni əhalisinin təhlükəsizliyini təmin etmək istəyir, amma fakt budur ki, orada Rusiya sülhməramlı kontingenti var, onun funksiyası Qarabağda əhalinin təhlükəsizliyini təmin etməkdir. Eyni zamanda, İrəvan sülhməramlıların müvəqqəti məsuliyyət zonasında yerləşən ərazilərə "könüllülər" adı altında öz hərbi hissələrini göndərir. Yəni faktiki olaraq Ermənistan silahlı qüvvələri 2020-ci ildə uğradıqları məğlubiyyətə baxmayaraq, Azərbaycan ərazisində mövcuddur. Bundan başqa, Ermənistan hər cür proqramlar həyata keçirir, vəzifəsi Azərbaycan ərazilərini ilhaq etmək cəhdləri və hər cür təxribat törətməkdən ibarət olan bəzi özünü elan edən strukturları maliyyələşdirir. Əslində, Ermənistan-Azərbaycan həlli yolunda indi baş verənlər məhz budur.






Təbii ki, Azərbaycan öz bəyan etdiyi mövqeyinə uyğun olaraq siyasi vasitələrlə Ermənistana sülh yolu ilə nizamlanmanın cəlbediciliyini göstərməyə çalışır. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev hər dəfə çıxışlarında vurğulayır ki, ərazi bütövlüyümüzün pozulması və Ermənistanın destruktiv siyasətinin davam etdirilməsi halında Bakı güc tətbiq etməyə hazırdır. Başqa sözlə, ölkəmiz ikikomponentli siyasət tətbiq edir", - deyə sabiq xarici işlər naziri bildirib.

Daha sonra həmsöhbətimiz əlavə edib ki, Rusiya və digər xarici oyunçular ənənəvi olaraq bu münaqişədən Azərbaycanın daxili işlərinə qarışmaq və onun siyasətinə təsir etmək üçün alətlər yaratmaq üçün istifadə edirlər.

"Onlar üçün münaqişənin mövcudluğu 30 ildir müdaxilənin aparıldığı alətlər dəstidir. Təbii ki, heç kim Azərbaycana bu təsir alətini itirmək istəmir ki, bu da öz növbəsində bu gün müşahidə etdiyimiz ikili siyasətə gətirib çıxarır: bir tərəfdən sülhə sadiqlik bəyannaməsi, Azərbaycanın ərazi bütövlüyünə hörmət, digər tərəfdən, gərginlik və konflikt situasiyasının ocağının saxlanmasına yönəlmiş əməli hərəkətlər", - deyə T.Zülfüqarov bildirib.

Öz növbəsində F.Məmmədov qeyd edib ki, Ermənistanın baş naziri Nikol Paşinyan heç vaxt proqnozlaşdırıla bilənliyi ilə seçilməyib. "44 günlük müharibədən əvvəl olduğu kimi, bu baxımdan da heç nə dəyişmədi, müharibədən sonra da. Bizdə 2021-ci il təcrübəsinə sahibik, o zaman Moskvada 11 yanvar tarixli bəyanatlar qəbul edildi, burada müddətlər aydın şəkildə göstərildi. O vaxtdan 1 il 4 ay keçsə də, kommunikasiyaların açılması prosesində heç bir irəliləyiş yoxdur. Yalnız hökumətlərarası komissiya səviyyəsində iş aparılıb.

Mövcud vəziyyətə gəlincə, hər kəs Paşinyanın Moskva səfərindən sonra Ermənistanın ritorikasının dəyişdiyini hiss etdi. Paşinyanın Milli Assambleyada Ermənistanın Qarabağın statusu ilə bağlı nizamlanmanı ləngitməyin zəruriliyi ilə bağlı bəyanatından bir gün sonra Aİ-nin Cənubi Qafqaz üzrə nümayəndəsi Toivo Klaar öz Twitter səhifəsində Ermənistan baş nazirinin bu uzaqgörən qərarını alqışladığını yazıb. Yəni Paşinyanın beynəlxalq ictimaiyyəti deyərkən kimi nəzərdə tutduğu aydın oldu.

İndi biz həm də o dövrə gəlmişik ki, Paşinyan hökuməti delimitasiya ilə bağlı qərar qəbul etməli idi, lakin Ermənistanın parlament müxalifəti ötən ilin fevralında olduğu kimi yenidən aktiv fəaliyyətə başlayıb. Amma Ermənistanda müxalifətin fəallığına görə hər dəfə qərarlar təxirə salınsa, bu heç də yaxşı nəticə verməyəcək. Hesab edirəm ki, bu mesajı Ermənistan tərəfinə ötən görüşlərdə Azərbaycan nümayəndələri veriblər. Bunu Azərbaycan prezidenti də həmişə deyir. Eyni zamanda biz görürük ki, Ermənistanda müxalifətin fəaliyyəti bir növ həddən artıq və ya irimiqyaslı xarakter daşımır. Buna baxmayaraq, Paşinyan dövlət çevrilişinin bəzi elementlərini ruhlandıra bilər", - politoloq hesab edir.

F.Məmmədovun sözlərinə görə, indiki mərhələdə Ermənistan rəhbərliyinin ümumi strategiyası prosesin ləngiməsi və mürəkkəbləşməsi kimi qiymətləndirilir.

"Xoşbəxtlikdən həm Rusiya tərəfi, həm də Qərb tərəfdaşları artıq Azərbaycan və Ermənistan arasında mövcud danışıqlar prosesinin bütün incəliklərindən xəbərdardırlar və onların iştirakı ilə bu müddətlər qəbul edilib ki, bu da həm üçtərəfli bəyanatlarda, Avropa Şurasının rəhbəri Çarlz Mişellə verilən bəyanatda qeyd olunub. Ona görə də Azərbaycanın birtərəfli fəaliyyəti bu ölkələr və geosiyasi güc mərkəzləri üçün təəccüblü olmayacaq", - deyə F.Məmmədov yekunlaşdırıb.

**_Tərcümə - Elçin Bayramlı_**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



SON SƏHİFƏ
SƏS
6 may
2022-ci il

# "Real"dan möhtəşəm geridönüş: "Kral" finalda!



**Futbol üzrə UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinə yekun vurulub. Son illər Çempionlar Liqasının finalına adlayan Madrid "Real"ı, ilk oyunda 3:4 hesabı ilə uduzduğu "Mançester Siti"ni qəbul edib.**

Bütün futbol azarkeşlərinin diqqət mərkəzində olan bu vacib qarşılaşma gözlənildiyi kimi dramatik məcrada keçib. Oyunda hesabı qonaqlar açıb və matçın son dəqiqələrinə qədər üstünlüyünü qoruyub. Ancaq Madrid klubunun hücumçusu Rodriqo 90 və 90+1-ci dəqiqələrdə dubl edərək komandasını məğlubiyyətdən xilas edib, görüş əlavə vaxta gedib. Əlavə vaxtda isə Kərim Benzema penaltidən fərqlənib və "Real" möhtəşəm geridönüşlə finala yüksəlib.

Karlo Ançelottinin komandası finalda "Liverpul"la üz-üzə gələcək. Həlledici oyun mayın 28-də Fransanın paytaxtı Parisdəki "Stad de Frans"da keçiriləcək. Görüş Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

## Tvitter pullu olacaq?



"Sosial şəbəkələrin pullu olma ehtimalı azdır. Çünki sosial şəbəkələrin işləmə modeli istifadəçilərə pulsuz xidmət göstərmək, bunun qarşılığında istifadəçilərin datalarını əldə etmək və bunu reklam verənə satmaqdır. Bütün məşhur sosial media hesabları bu cür işləyir". Bu sözləri SİA-ya açıqlmasında sosial media mütəxəssisi Orxan Rzayev deyib. Onun sözlərinə görə, son zamanlar İlon Maskın sahibi olduğu "Tvitter"i ödənişli ediləcəyi xəbəri yayılıb: "Bu da insanlarda böyük maraq doğurub. Düşünürəm ki, bu sadəcə şaiyədir. Saytlar bunu sırf reytinq xatirinə yazırlar".

Orxan Rzayevin sözlərinə belə davam edib: "Digər şəbəkələr bunu edə bilməz. Amma söhbət İlon Maskdan gedirsə o istədiyi hər şeyi edə bilər. Yəni, platformasını pullu edib uğur əldə edə bilər. Bu haqda yəqin ki, onların ciddi araşdırmaları var".

***Ayşən Vəli***

## Avtobuslarda qızları bıçaqla hədələyən manyak tutuldu

**Bakıda marşrut avtobuslarında gənc qızlara qarşı seksual xarakterli hərəkətlər edən şəxs tutulub. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, bir neçə gün əvvəl Səbail rayon Polis İdarəsinin 41-ci Polis Bölməsinə müraciət edən İ.S. 31 saylı xəttə məxsus avtobusda naməlum şəxsin onun 2005-ci il təvəllüdlü qızına qarşı seksual xarakterli hərəkətlər etdiyini və qızını ölümlə hədələdiyini bildirib.**

Müraciətlə bağlı dərhal əməliyyat-axtarış tədbirlərinə başlanılıb. Məlum olub ki, həmin adam paytaxtın mərkəzində bir neçə dəfə marşrut avtobuslarında oxşar əməllər törədib. O, hər dəfə qızları öldürəcəyi ilə hədələməklə onları bəzi hərəkətlər etməyə məcbur edib. Belə ki, əlində daim gödəkçə gəzdirən manyak kəsici-deşici aləti onun altında gizlədib və bu yolla insanları hədələyib.



Qızlardan biri hətta onun fotosunu mobil telefon vasitəsilə çəkərək saxlayıb və daha sonra polisə təqdim edib.

Axtarış tədbirləri nəticəsində həmin şəxsin kimliyi müəyyənləşdirilib və o saxlanılıb. Məlum olub ki, bu şəxs taksi sürücüsüdür və avtomobilini yol kənarında saxladıqdan sonra hər dəfə avtobusa daxil olaraq bu əməlləri törədib. Araşdırmalar davam etdirilir.

## Hansı idman sayəsində neçə kalori itiririk?

İdman sağlam yaşamağın, çəkiyə nəzarət etməyin önəmli bir parçasıdır. Sağlamlığımızı qorumağa kömək etməklə yanaşı, kalori itirməmizi də təmin edir. Ancaq bu idman hərəktləri sayəsində neçə kalori itirdiyimizi bilmirik. Lent.az hansı idman hərəktləri sayəsində neçə kalori itirdiyinizi təqdim edir.

- Yarım saat qaçmaq -təxminən 400-450 kalori,
- 1 saat üzmək - 500-600 kalori,
- 1 saat velosiped sürmək - 600-650 kalori,
- 1 saat tenis - 500-550 kalori,
- Yarım saat qayıq sürmək - 250-300 kalori,
- 1 saat ip atlamaq - 600-700 kalori,
- 1 saatlıq aerobika hərəkəti - 350-400 kalori itirmək deməkdir.

Bu kalori nəticələri edilən idman hərəkətinin ağırlığı, idmanla məşğul olan insanın çəkisi, əzələ gücü və aktivliyi baxımından dəyişir.



## ELAN

YAP Ağstafa rayon təşkilatı tərəfindən partiya üzvünə təqdim edilmiş 01.03.1998-ci il tarixli № 037920 nömrəli partiya üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**